**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# 1980-Cİ İLLƏR TÜRK XALQLARI ROMANINDA JANR ÖZÜNƏMƏXSUSLUĞU: BƏDİİ-ESTETİK TƏKAMÜL

İxtisas: 5717.01 – Türk xalqları ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Mehman Ağasəlim oğlu Həsənli**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**İsa Əkbər oğlu Həbibbəyli**

Rəsmi opponentlər: Qırğızıstan MEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Abdıldajan Amantur oğlu Akmataliyev**

filologiya elmləri doktoru, professor
**Əsgər Adil oğlu Rəsulov**

filologiya elmləri doktoru, dosent
**Elmira Fikrət qızı Məmmədova-Kekeç**

filologiya elmləri doktoru, dosent
**Şükufə İbrahim qızı Qədimova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.18 – Dissertasiya şurasının bazasında yaradılmış BED 1.18 – Birdəfəlik dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Gövhər Baxşəli qızı Baxşəliyeva**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**Xanımzər Əli qızı Kərimova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**Elman Hilal oğlu Quliyev**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** 1980-ci illər türk xalqları romanında bədii-estetik planda dəyişmələr baş verir. Bu proses müstəqil Türkiyə ədəbiyyatında, sovetlərin tərkibində olan aparıcı türk xalqları nəsrində, eyni zamanda Şərqi Türküstanda, uyğur romanında özünü göstərir. Qeyd olunan onillikdə, mənşəcə eyni etnosdan olan və həmin zamanda fərqli ictimai-siyasi proseslər daxilində olan türk xalqları romanı böyük ölçüdə özünəməxsus keyfiyyətlər qazanaraq müəyyən dəyişikliklərə məruz qalır. Tədqiqat işində bu zaman kəsiyini əhatə etməklə türk xalqları romanında baş verən forma və məzmun transformasiyaları araşdırılır. Bu məqsədlə, Azərbaycan, Türkiyə, qazax, qırğız, özbək, uyğur, türkmən, başqırd və tatar ədəbiyyatından əllidən artıq roman nümunəsi araşdırılır və romançılığının səciyyəvi xüsusiyyətləri təhlil edilir, həmin romanlar haqqında çoxsaylı məqalə, monoqrafiya və araşdırmalar tədqiqata cəlb edilir. Əlbəttə, tədqiqat işində türk xalqlarının yaşadığı coğrafiyanın genişliyi, ədəbiyyatının fərqli ədəbi-estetik kontekstlərdə inkişaf və təkamül yolu nəzərə alınmışdır. 1980-ci illərdə yaranan roman mətnləri və onların təkamül yolu, bir sıra oxşar və fərqli forma və məzmun komponentlərinə görə qruplaşdırılaraq tədqiqata cəlb edilməsi ilk dəfə bu dissertasiyada qarşıya məqsəd kimi qoyulmuşdur. Bu, dissertasiyanın aktuallığını şərtləndirən başlıca amildir.

Türklər qədim dövrlərdən vahid etnos mərhələsindən sonra ayrı-ayrı boylar şəklində, daha sonra xalq və millət formasında təşkilatlandıqdan, müxtəlif şəkildə dövlət quruculuqlarında iştirak etdiklərindən onları birləşdirən təməl dəyərlərlə birlikdə, kifayət qədər bir-birindən fərqli, özünəməxsus keyfiyyətlər də əldə etmişlər. Qeyd olunan fərdi, spesifik keyfiyyətlərin meydana çıxması ədəbiyyatda da öz təzahürünü tapmışdır. Xüsusilə, son iki əsrdə baş verən ictimai-siyasi, eləcə də sosial-mədəni proseslər nəticəsində millətləşmə prosesinin dərinləşməsi geniş türk coğrafiyasında yaranan ədəbiyyatı hər hansı ədəbi janr və ya zaman çərçivəsində bir problem, istiqamət və mövzu daxilində tədqiq etməyi çətinləşdirmişdir. Buna baxmayaraq,

zaman aralığı kimi seçdiyimiz onillikdə, məkan həlqələri kimi götürdüyümüz Türkiyə, keçmiş sovet siyasi sistemində yaşamış türk xalqları, Şərqi Türküstanda qlobal və lokal proseslərin təsiri ilə sosial-siyasi və ictimai-mədəni mühitlərdə silkələnmələr baş vermiş və bütün bunlar ədəbiyyatda, o cümlədən romançılıqda üslub və məzmun dəyişikliklərinə səbəb olmuşdur. Dissertasiya işində qeyd olunan üç məkan həlqəsində türk xalqları romançılığının ümumi inkişaf dinamikası və 1980-ci illərin özünəməxsus keyfiyyətlər qazanaraq dəyişmə modusu tədqiq edilmişdir.

Türkiyədə 1960-cı il çevrilişindən sonra realist romançılıq ənənəsində müəyyən dəyişikliklər başlayır. Əhməd Həmdi Tanpınarın "Saatları qurma institutu" əsəri ilə başlayan Türkiyə romanının modernləşməsi prosesi 1970-ci illərdə Ceyms Coysun "Uliss" romanının təsiri ilə yazılan Oğuz Atayın "Tutunamayanlar" əsəri ilə özünün möhkəm təməllərini yaradır. Eyni zamanda, 1980-ci illər Türkiyə romanında modernizmlə postmodernizm arasında keçid mərhələsi kimi xarakterizə olunur. Bu dövr ədəbiyyatın və həmin keçid prosesinin ən tanınmış nümayəndəsi Orxan Pamukdur. Onunla birlikdə Bilgə Karasu, Ədalət Ağaoğlu, Mehmet Əroğlu, Əhməd Altan, Leyla Ərbil fərqli təhkiyə quruluşu əsasında kafkasayağı üslubun qiymətli nümunələrini yaradırılar. Bu onillikdə Lətifə Təkinin "Sevgili arsız ölüm" romanı ilə  Türkiyə nədrində magik realizmin əsası qoyulur. Odur ki, biz  tədqiqat işində digər problemlərlə yanaşı, həm də Türkiyə romanında keçid prosesini araşdırmaya cəlb etmişik.

Çar Rusiyasından sonra Qafqaz və Orta Asiyanın Sovet imperiyasının əsarəti altına düşməsi və tətbiq edilən amansız ideoloji siyasət imperiya daxilində yaşayan türk xalqlarının ictimai-mədəni həyatında, o cümlədən ədəbiyyatında da oxşar proseslərin yaranmasına səbəb oldu. Bu baxımdan, 80-ci illərdə Yenidənqurma siyasəti altında əslində dağılmağa doğru gedən imperiyada yaşayan türk xalqlarının azadlıq, müstəqillik və muxtar statusla öz milli varlığını qorumaq uğrunda mübarizə geniş vüsət aldı. Tədqiqat işində Azərbaycan, qazax, qırğız, özbək, türkmən, başqırd və tatar romanlarında dövrün çağırışı ilə baş verən dəyişikliklər əsaslı şəkildə araşdırılır.

Şərqi Türküstanda yaşayan uyğurların 1970-cı illərin ortalarından sonra yaranmağa başlayan və 80-ci illərdə əsasən tarixi xronika

şəklində geniş vüsət almış romançılığı da tədqiqat obyekti kimi Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq nəzərdən keçirilmişdir.

Qeyd etdiyimiz kimi, tədqiqat işinin ayrı-ayrı istiqamətləri üzrə bir sıra araşdırmalar aparılsa da, bir küll halında belə geniş məkan çərçivəsi daxilində vahid tədqiqat işində təhlillərə cəlb edilməmişdir. Tədqiqatda Azərbaycan, Türkiyə, türkmən, özbək, qazax, qırğız, uyğur, başqırd və tatar xalqlarının ədəbiyyatşünaslığında qismən bu zaman aralığı haqqında ümumi, əsasən isə ayrı-ayrı yazıçıların yaradıcılığı və ya hər hansı roman haqqında dissertasiya və monoqrafiya səviyyələrində araşdırmalar aparılmışdır. 1980-ci illər Azərbaycan romanı haqqında İsa Həbibbəylinin "Ədəbi şəxsiyyət və zaman"[1], Nərgiz Paşayevanın "İnsan bədii tədqiq obyekti kimi"[2], Muxtar İmanov "Müasir Azərbaycan nəsrində psixologizm"[3], Tehran Əlişanoğlu "XX əsr Azərbaycan nəsrinin poetikası"[4], Təyyar Salamoğlu "80-ci illər Azərbaycan romanı: janr təkamülü"[5], Yavuz Axundlu "Azərbaycan sovet tarixi romanı"[6], Akif Hüseynov "Nəsr və zaman"[7], Tofiq Hüseynoğlu "Söz-tarixin yuvası"[8], Qulu Xəlilov "Azərbaycan romanının inkişaf tarixindən"[9], Himalay Qasımov "Azərbaycan romanının inkişaf problemləri"[10], Vaqif Yusifli "Nəsr: konfliktlər,

---

[1] Həbibbəyli, İ. Ədəbi şəxsiyyət və zaman / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2017, – 1068 s.

[2] Paşayeva, N. İnsan bədii tədqiq obyekti kimi / N.Paşayeva. – Bakı: "XXI" Yeni Nəşrlər Evi, – 2003, – 256 s.

[3] İmanov, M. Müasir Azərbaycan nəsrində psixologizm / M.İmanov. – Bakı: Elm, - 1991, – 116 s.

[4] Əlişanoğlu, T. XX əsr Azərbaycan nəsrinin poetikası // T.Əlişanoğlu. – Bakı: Elm, – 2006, – 312 s.

[5] Salamoğlu, T. 80-ci illər Azərbaycan romanı: janr təkamülü (monoqrafiya). Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri / T.Salamoğlu. – Bakı: Səda, – 2012. – 480 s.

[6] Axundov, Y. Azərbaycan sovet tarixi romanı / Y.Axundov. – Bakı: Yazıçı, – 1979. – 236 s.

[7] Hüseynov, A. Nəsr və zaman / A.Hüseynov. – Bakı: Yazıçı, – 1980, – 185 s.

[8] Hüseynoğlu, T. Söz – tarixin yuvası / T.Hüseynoğlu. – Bakı: Azərnəşr, – 2000, – 166 s.

[9] Xəlilov, Q. Azərbaycan romanının inkişaf tarixindən / Q.Xəlilov. – Bakı: Elm, – 1973. –354 s.

[10] Ənvəroğlu (Qasımov), H. Azərbaycan romanının inkişaf problemləri //H.Ənvəroğlu. – Bakı: Nurlan, – 2008, – 336 s.

xarakterlər"[11] və digər tanınmış alimlər bir sıra tədqiqatlar aparmışlar.

Tədqiqata cəlb etdiyimiz türk xalqlarının romanları haqqında isə Jale Parla "Don Kixotdan bu günə roman"[12], Gürsel Aytaç "Çağdaş türk romanı üzərinə araşdırmalar"[13], Berna Moran "Türk romanına tənqidi bir baxış"[14], Orhan Söyləməz "Türk dünyasında tarixi roman və milli kimlik"[15], Abdıldajan Akmataliyev "Milli ədəbiyyatların qarşılıqlı zənginləşməsi prosesində Çingiz Aytmatov yaradıcılığının əhəmiyyəti"[16], Gülzadə Tanrıdağlı "Çağdaş uyğur romanı (XX əsr)"[17], Daniya Zaqidullina "Tatar poeziya və nəsri XX-XXI əsrlərin qovşağında"[18], Ahmet Gökçimen "Başlanğıcdan müstəqilliyə qədər türkmən romanı"[19] və digər araşdırmalar aparılmışdır.

Tədqiqat işində qeyd etdiyimiz müəlliflərin monoqrafiya və məqalələrinə istinad olunmaqla həmin mənbələrdən elmi-nəzəri zəmində bəhrələnilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini Azərbaycan, Türkiyə, qazax, qırğız, özbək, türkmən, uyğur, başqırd və tatar ədəbiyyatında bu dövrdə yazılmış əsas roman nümunələri təşkil edir. Dissertasiya işində qeyd olunan türk xalqlarının onillik zaman kəsimində bu janrın bədii-estetik təkamülündə baş verən forma və

---

[11] Yusifli, V. Nəsr: konfliktlər, xarakterlər / V.Yusifli. – Bakı: Yazıçı, – 1986, – 166 s.

[12] Parla, J. Don Kişot'dan Bugüne Roman / J.Parla. – İstanbul: İleteşim, –2018, – 389 s.

[13] Aytaç, G. Çağdaş türk romanı üzerine incelemeler / G.Aytac. –Ankara: Doğu Batı Yayınları, – 2012, – 480 s.

[14] Moran, B. Türk romanına eleştirel bir bakış / B.Moran. – İstanbul: İletişim Yayınları, –2012, – 336 s.

[15] Söylemez, O. Türk dünyasında tarihi roman ve milli kimlik / O.Söylemez. – Ankara: Bengü Yayınları, –2019, – 274 s.

[16] Акматалиев, А.А. Значение творчества Ч.Айтматова в процессе взаимообогащения национальных литератур / А.А.Акматалиев. – Бишкек: Илим, 1994. – 308 с.

[17] Tanrıdağlı, G. Çağdaş Uygur Romanı (20. Yüzyıl) / G.Tanrıdağlı. Doktora tezi. İstanbul, Marmara Universitesi, 1996, – 284 s.

[18] Загидуллина, Д. Татарская поэзия и проза рубежа XX-XXI веков: эстетические ориентиры и художественные поиски / Д.Загидуллина,. – Казань: Татарское книжное издательство, – 2018, – 287 с.

[19] Gökçimen, A. Başlangıçtan Bağımsızlığa Kadar Türkmen Romanı / A.Gökçimen. – Erzurum: Fenomen Yayıncılık, – 2015, – 433 s.

məzmun dəyişiklikləri təhlillərə cəlb edilmişdir.

Tədqiqatın predmetini 1980-ci illər romanlarının özünəməxsus xüsusiyyətləri, cəmiyyətdə gedən proseslərin təsiri ilə romanda baş verən bədii-estetik transformasiyalar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi 1980-ci illər Azərbaycan, Türkiyə, qazax, qırğız, özbək, türkmən, uyğur, başqırd və tatar romanlarında gedən ictimai-siyasi, ədəbi-mədəni hadisələr fonunda ədəbiyyatın, o cümlədən romanın bu prosesə adekvat münasibətini və qazandığı yeni keyfiyyətləri öyrənməkdir. Qeyd edilən məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi məqsədəuyğun hesab edilmişdir:

- Dünya ədəbiyyatında roman janrının yaranması və keçdiyi inkişaf yolunu türk xalqlarının romançılığı kontekstində dəyərləndirmək;
- Türk xalqlarının ədəbiyyatlarında roman janrının yaranma zərurətinin ədəbi-tarixi əsaslarını və inkişaf tendensiyalarını tədqiq etmək;
- Azərbaycan romanının 1980-ci illərdə mifoloji, tarixi, sosial və digər çoxvektorlu inkişaf meyillərini araşdırmaq;
- Türkiyə ədəbiyyatında modernist romanın formalaşması və roman təhkiyəsində kardinal dəyişikliklərin mahiyyətini üzə çıxarmaq;
- Orxan Pamukun roman yaradıcılığı əsasında intertekstuallığın mətnin forma və məzmun keyfiyyətlərinin formalaşmasında rolunu dəyərləndirmək;
- Böyük qırğız yazıçısı Çingiz Aytmatovun yaradıcığını əsas götürərək qırğız romanında manqurtlaşma ideyasını, repressiyanın bədii ədəbiyyatda təcəssümü məsələsini öyrənmək;
- Qazax romanında 1930-cu illərdə baş verən aclıq və repressiyanın ideya-estetik baxımdan bu illərin nəsrində necə yer almasını araşdırmaq;
- Uyğur romanında tarixi xronikanın bədii mətndə milli yaddaşı ifadə edən mexanizm kimi işlənməsini dəyərləndirmək;
- Özbək romanında tarixi xronikadan belletristikaya keçidin aparıcı cəhətlərini müəyyənləşdirmək;
- Sosial-siyasi motivlərin, ictimai-mədəni etirazın və etnik-tarixi yaddaşın bərpasının başqırd romanlarında necə əks olunduğunu ortaya

çıxarmaq;

- 1980-ci illərdə tatar ədəbiyyatında repressiyanın bədii-estetik dərkini tədqiq etmək;

- Dövlətməmməd Azadi, Məhtimqulu Fəraqi, Molla Nəfəsin timsalında türkmən romanında tarixi şəxsiyyət faktorunun romanda işləklik qazanması məsələsini üzə çıxarmaq.

**Tədqiqat metodları.** Dissertasiya işinin yazılmasında tarixi-müqayisəli təhlil, müqayisəli-tipoloji metodlardan istifadə edilmişdir. Türk xalqları və müqayisəli-qarşılaşdırıcı ədəbiyyatından seçilmiş roman mətnləri çağdaş roman nəzəriyyələri bazasında tanınmış roman tədqiqatçılarının əsərlərinə istinad edilməklə araşdırılmışdır. Tədqiqat işində türk xalqları ədəbiyyatından araşdırmaya cəlb etdiyimiz roman nümunələri həm bu, həm də dünya ədəbiyyatında forma və məzmun baxımından bənzər nümunələrlə tipoloji baxımından müqayisələr aparılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində Azərbaycan, Türkiyə, qazax, qırğız, özbək, uyğur, türkmən, başqırd və tatar ədəbiyyatından 1980-ci illərdə nəsrin aparıcı janrı olan romanın həm məzmun, həm də forma baxımından dəyişməsinə, yenilənməsinə xidmət edən nümunələri araşdırmaya cəlb edilmişdir. Tədqiqat işində aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

- 80-ci illər fərqli ictimai münasibətlər sistemində yaşayan türk xalqları ədəbiyyatı romanında bədii-estetik planda təkamül, yeniləşmə prosesləri getmişdir;

- İctimai-siyasi proseslərin təsirinə görə şərti olaraq Türkiyə, Qafqaz və Orta Asiya və Sovet imperiyası daxilində yaşayan digər aparıcı türk xalqları (başqırd və tatar) və Şərqi Türküstan olmaqla üç məkan həlqəsi kimi götürdüyümüz türk xalqları ədəbiyyatı romanlarında dünya ədəbiyyatı ilə bağlı yaranan yeni dialoq müstəvisi çərçivəsində həm forma baxımından, həm də məzmun komponentlərində transformasiyalar baş vermişdir;

-Bu illərdə Türkiyə romanında nəzərə çarpacaq transformasiyalar getməklə, həm də ənənəvi roman strukturunda və təhkiyə quruluşunda dəyişmələr büruzə vermişdir.

- Azərbaycan romanında xalqın tarixi yaddaşını ifadə edən mifoloji məzmun, tarixi qəhrəmanların obrazlarının yaradılması,

quruluşdakı neqativ proseslərin tənqidi və müstəqillik ideyalarının əks olunması ön mövqeyə çıxmağa başlamışdır;

- Orta Asiyada yaşayan türk xalqları ədəbiyyatında müstəqillik və azadlıq ideyaları güclənmiş, 1930-cu illərdə imperiyanın törətdiyi aclıq və repressiya 80-ci illərin romanlarında əsas mövzu olaraq seçilmişdir;
- Şərqi Türküstanda yaşayan uyğurların romanlarında xalqın XX əsr boyu apardığı istiqlal mücadiləsi bir çox hallarda tarixi- xronikal şəkildə roman mətnlərində öz əksini tapmışdır;
- Türk xalqları romanının 1980-ci illərdə dünya romançılığı ilə dialoq imkanları genişlənmiş, strukturu yenilənmiş və məzmununda milli düşüncə ön plana keçmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işindəki elmi yeniliklər aşağıdakılardan ibarətdir:

- 80-ci illər türk xalqları ədəbiyyatında roman janrı lokal olaraq hər hansı bir xalqın və ya müəllifin deyil, ümumilikdə türk xalqlarının aparıcı yazıçılarının yaradıcılığı əsasında tədqiqatlara cəlb edilmişdir;
- Türkiyə, Sovet imperiyasının tərkibində olan aparıcı türk xalqları və Şərqi Türküstanda yaşayan uyğurların romançılıq ənənəsi və bu ənənə çərçivəsində özünəməxsus xüsusiyyətləri ilk dəfə olaraq araşdırılmışdır;
- Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq, Türkiyə romanında 80-ci illərin ictimai-siyasi və mədəni-mənəvi proseslərinin təsiri altında romançılıqda baş verən köklü dəyişikliklər, janr strukturunda baş verən ciddi transformasiyalar, kafkasayağı üslubun, magik realist ənənənin nəsrdə aktuallıq qazanması öyrənilmişdir;
- Ədəbiyyatşünaslığımızda ilk dəfə olaraq uyğur romançılıq ənənələrinə nəzər salınmaqla yanaşı, onun bu illərdə keçdiyi inkişaf yolu bədii mətnlər əsasında tədqiq edilmişdir;
- Dissertasiya işində ilk dəfə olaraq konkret zaman çərçivəsində mümkün qədər geniş coğrafiyada yaşayan aparıcı türk xalqlarının konkret roman janrı üzrə yaradıcılığının müxtəlif aspektləri araşdırılmışdır;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində nəzərdən keçirdiyimiz onillikdə zəngin mədəni-ədəbi irsə malik olan türk xalqlarının roman ənənəsi ilk dəfə araşdırmaya cəlb edildiyi üçün tədqiqat işindən bu sahə ilə məşğul olan mütəxəssislər yararlana

bilərlər. Tədqiqat işindən türk xalqları ədəbiyyatının araşdırılmasında, müxtəlif monoqrafiya, dərslik, dərs vəsaitlərinin yazılmasında, eləcə də türk xalqları ədəbiyyatı sahəsində mühazirə mətnlərinin hazırlanmasında da istifadə edilə bilər. Dissertasiya işi eyni zamanda roman janrı haqqında tədqiqat aparan mütəxəssislər üçün də mənbə ola bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmiş və İnstitutun Elmi şurasında təsdiq edilmişdir. Dissertasiyanın ayrı-ayrı müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, ölkədə və xaricdə keçirilən beynəlxalq səviyyəli elmi konfranslarda, eyni zamanda beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan (Web of Science, Copernicus, Ulakbim) jurnallarda nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmiş, şöbənin tədqiqat istiqamətinə uyğun olaraq tamamlanmışdır.

**Dissertasiya işinin strukturu və ümumi həcmi.** Dissertasiya işi giriş (14.210 şərti işarə), dörd fəsil (birinci fəsil üç paraqraf – 130.407 şərti işarə, ikinci fəsil üç paraqraf – 85.535 şərti işarə, üçüncü fəsil üç paraqraf – 104.158 şərti işarə, dördüncü fəsil üç paraqraf – 77.218 şərti işarə), nəticə (9.068 şərti işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 420.596 şərti işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, nəzəri-metodoloji əsaslarından bəhs edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır.

Tədqiqat işinin *"Türk xalqları romanı dünya romançılıq*

*ənənələri kontekstində”* adlanan birinci fəslində dünya ədəbiyyatında roman janrının yaranması və inkişafı, janrın formalaşması və inkişafına təsir edən amillər, romanın ədəbi-mədəni, ictimai-siyasi proseslərin inkişaf dinamikasına təsir mexanizmləri araşdırmaya cəlb edilmişdir. Həmçinin türk xalqlarının roman ənənəsinin dünya ədəbiyyatı kontekstində yaranması və ideya-estetik mahiyyətinin təhlilinə də yer verilir. Bu fəsildə 80-ci illərdə çoxcəhətli inkişafı ilə seçilən, tarixi-mifoloji qatlarla zəngin olan Azərbaycan romanındakı yenilənmə prosesləri araşdırılır.

1980-ci illər Türk xalqları romanında Çingiz Aytmatovun “Gün var əsrə bərabər” əsəri mühüm yer tutmaqdadır. Sovet imperiyasının tərkibində yaşayan türk xalqlarının nəsrində bu roman təkcə qırğız xalqının deyil, geniş bir coğrafiyada ümumtürk ədəbiyyatının inkişafına öz təsirini göstərdi. “Gün var əsrə bərabər” dərin mifoloji məzmun qatı ilə seçilən, daha yaxın tarixin, 1930-cu illər amansız repressiyasını dəqiq konturları ilə göstərən və nəhayət sovet imperiyasının yerli xalqlara qarşı apardığı yaddaşsızlaşdırmanı yazıçının tapıntısı olan manqurtlaşma anlayışı ilə ifadə edən mühüm bir “Qrinviç” nöqtəsi idi. Ç.Aytmatovun bu romanla gətirdiyi ideyalar ortaq mahiyyət daşıdığı üçün digər türk xalqlarında da böyük maraqla qarşılandı və məzmun baxımından yaxın, qeyd olunan problemlərə fərqli baxışı ifadə edən nəsr nümunələri meydana çıxmağa başladı.

Birinci fəslin *“Dünya ədəbiyyatında roman təfəkkürü və Türk xalqları romanı”* adlanan birinci paraqrafında dünya ədəbiyyatında roman janrının qədim kökləri, XVII əsrdə burjua münasibətlərinin formalaşması ilə əvvəlki cəngavərlik mətnlərində baş verən transformasiya proseslərinin nəticəsində Migel de Servantesin “Don Kixot” adlı ilk roman nümunəsinin meydana çıxması və janrın sonrakı əsrlərdə inkişaf dinamikasının əsas xüsusiyyətləri tədqiqata cəlb edilmişdir. Servantesin “Don Kixot” əsəri özündən əvvəlki cəngavərlik mətnlərinin bir növ ziddinə getməklə, onlara ironik münasibətin nəticəsində meydana gəlmişdir. Lakin XVII-XVIII əsrlərdə roman ədəbiyyatın aparıcı janrlarından birinə çevrilə bilməmiş, əyləncə mahiyyətli janr kimi qəbul edilmişdir. XVIII-XIX əsrlərdə sənaye münasibətlərinin inkişafı humanitar düşüncəyə də öz təsirini göstərməyə başlamışdır. Ümumiyyətlə, humanitar fikrin, ədəbi-bədii

düşüncənin inkişafı cəmiyyətdə baş verən elmi-texniki proseslərin nəticəsi ilə bilavasitə bağlı olmuş, XIX əsrdən etibarən bu qarşılıqlı münasibətlər sistemində roman ən adekvat forma kimi çıxış etməyə başlamışdır.

Roman janrı dünya ədəbiyyatında öz sərhədlərini genişləndirdikcə, funksionallıq qazandıqca onun tarixi kökləri, təkamül yolu, bədii-estetik çəkisi ilə bağlı müxtəlif mülahizələr meydana gəlmişdir. Roman geniş populyarlıq qazandıqdan sonra tədqiqatçılar onun köklərini qədim Yunan-Roma mətnlərində axtarmağa başladılar. Təbii ki, antik dövrdə axtarılan köklər getdikcə formasına görə janrın tələblərinə cavab vermirdi. *"Uzun müddət roman anlayışı latın dilindən fərqli, roman dilində yazılmış mətnlərə aid edilirdi"*[20]. Romanın təməli kimi götürülən Qədim Yunan-Roma mətnləri şeirlə yazılmışdır. Baxtinin qeyd etdiyi kimi, "*Roman antik ədəbiyyatın janr harmoniyasında iştirak etmirdi"*[21].

Roman janrının çərçivələrini və hansı əsərlərin bu janra aidliyi məsələsi ilə bağlı bir çox tədqiqatlar aparılmışdır. Romanı başqa mənsur əsərlərdən fərqləndirməyə imkan verən digər özəlliklər, yaxud romanda olan, fəqət roman öncəsi mənsur əsərlərdə olmayan tamlıqların formalaşması onun sonrakı inkişaf prosesini şərtləndirmişdir: "*Romanda bir giriş, əsas hissə və nəticə hissələrindən formalaşan, öz daxilində əsaslı təbii tamlıq vardır... Romanın tarixi inkişafına baxarsaq, bir əsərin, daxilindəki süjetin bu ölçüyə uyğun olduğu təqdirdə roman ola biləcəyi, əks halda romandan başqa bir şey olacağını görürük"*[22].

Qərbdə indiki romana forma baxımından daha yaxın olan cəngavərlik mətnləri XIII əsrdən etibarən yazılmağa başlamış və bu mətnlər müasir roman anlayışının meydana çıxmasında mühüm əsas kimi qəbul edilmişdir. Bu da təbii bir prosesdir. Romanın əsas strukturunu, məzmun qaynağını xalq əsatirləri, nağıllar, əfsanələr və digər şifahi mətnlər təşkil etmişdir. Eyni zamanda, türk nəsrində də

[20] Шарифова, С. Жанровое смешение в романе: коммуникативно-социокогнитивный подход / С.Шарифова. – Москва: Московский Парнас, – 2011, – с.29

[21] Бахтин, М. Эпос и роман. Сборник / М.Бахтин. –СПб.: Азбука, –2000. –с.195.

[22] Stevick, P. Roman teorisi / P. Stevick. –Ankara: Akçağ Yayınları, – 2010, –s.10

romanın zəngin epos mədəniyyəti əsasında meydana çıxmışdır.

XX əsr boyu elmi-texniki inqilabların baş verməsi, bəşəriyyətin bu dövrlə müqayisədə ən nəhəng kəşflərini ortaya qoyması və bütün bunların insanların rifahının deyil, dünya müharibələrinin baş verməsi ilə nəticələnməsi ədəbiyyatda və onun aparıcı janrı olan romanda bir sıra forma və məzmun transformasiya prosesinin baş verməsilə nəticələnmişdir. Roman bu yüzillikdə humanitar ideologiyaların təsiri ilə özünün "qabıq" elementlərini dəyişərək təlatümlü cəmiyyət reallıqları qarşısında çıxış yollarını axtarmışdır. Beləliklə, roman bu mərhələdə təkcə ədəbiyyatın deyil, ümumilikdə sənətin əsas özünüifadə vasitələrindən birinə çevrilmişdir. Təsadüfi deyil ki, yazıçı və roman sənəti nəzəriyyəçisi Milan Kundera romanın funksiya və vəzifələrindən bəhs edərkən, onu sənət adlandıraraq "Roman nədir?*"* sualına bir yəhudi "İnsan düşünür, Allah gülür" atalar sözü ilə cavab verir və bu hikmətli fikirdən ilhamlanaraq Fransua Rablenin Tanrının gülüşünü eşitdiyini, ilk böyük Avropa romanının beləcə ortaya çıxdığını düşünərək yazır: *"Roman sənətinin dünyaya Tanrı təbəssümünün əks-sədası kimi gəldiyini düşünməyi xoşlayıram. Bəs Tanrı insana baxarkən niyə gülür? Çünki insanlar düşünür və həqiqəti gözdən qaçırırlar. Çünki insanlar düşündükcə birinin düşüncəsi digərindən uzaqlaşır. Və çünki insanın düşündükləri heç vaxt düşündüyü kimi olmur. Orta əsrlərdə meydana gələn insana aid bu təməl prinsip modern çağın şəfəqində də özünü göstərirdi: Don Kixot düşünür, Sanço düşünür və yalnız dünya həqiqəti deyil, özlərinin doğruları da onlardan qaçırdı"*[23].

Bu kontekstdə Türk xalqları ədəbiyyatında roman janrının meydana çıxması və inkişaf tendensiyaları olduqca maraq doğurur. Müasir mənada Türk xalqları geniş coğrafiyada yaşayan, son minillikdə etnosdan ayrı-ayrı xalqlara parçalanaraq özünəməxsus keyfiyyətlər qazanan və müxtəlif şəkildə qruplaşaraq yaratdıqları və bəzən məcburi şəkildə istilasını qəbul etdikləri dövlətlər daxilində yaşayaraq bu günə qədər mövcudluqlarını sürdürə bilmişlər. Türk xalqlarının minilliklər boyu xarici assimiliyasiya təsirlərinə

---

[23] Kundera, M. Roman Sanatı / M.Kundera. Ankara: AFA Yayınları, – 1989, – s.180-181

baxmayaraq, mövcud olmasının və inkişaf edərək bu gün Türk dünyası anlayışı çərçivəsində güc olmaq yolunda sürətlə irəliləyə bilməsinin kökündə mənsub olduqları şifahi mifoloji yaddaş durmaqdadır. Türk xalqlarının roman təfəkkürü də qədim türk mifoloji mətnlərinə dayanmışdır. Zəngin dastan ənənəsi türk xalqları romanının əsas bazisini təşkil etməkdədir.

Dünya romançılığının müasir prinsiplərini əsas götürdükdə Türk xalqları romanı XIX əsrin ikinci yarısından etibarən yaranmağa başlamışdır. Bu dövrdə maarifçi realizmin sistemli şəkildə yaranıb inkişaf etdiyi türk xalqlarında roman janr olaraq meydana çıxmışdır. Bu baxımdan maarifçi realist ənənənin daha sistemli yaranıb inkişaf etdiyi Türkiyə, Azərbaycan və tatar ədəbiyyatlarında roman janrı XIX əsrin ikinci yarısında, digər türk xalqlarında XX əsrin ilk yarısında, uyğur ədəbiyyatında isə ikinci yarısında yaranıb inkişaf etdiyini görürük.

Türkiyə ədəbiyyatında roman Tənzimat dövründə, maarifçi fikrin inkişafı nəticəsində meydana çıxmışdır. Tənzimat hərəkatı (1839) böyük simaları ilə yeni maarifçilik hərəkatının əsasını qoymuşdur. Türkiyə cəmiyyətinin modernləşməsi, yeniləşməsi məhz Tənzimatla başlamışdır: "*Tənzimatda təqlid olunan şey, əsaslardan və metodlardan çox praktik nəticələndi. Tənzimat Nizami-Cədidin (yeni nizamın) davamıdır....Tənzimat axımı sonra bir az daha incələşərək düşünmək, düşüncəsini ifadə etmək, düşüncəsini yazmaq tərzlərinə də təsir göstərdi. Bu hadisə, müsəlman Osmanlı sosial həyatında dünyaya baxışın dəyişilməyə başlaması demək idi*"[24].

XIX əsrin 70-ci illərində yazılmış Şəmsəddin Saminin "Təəşşüqi-Tələt və Fitnət" (1872), Əhmət Midhətin "Yeniçərilər" (1872), "Həsən Məllah" (1875), "Hüseyn Fəllah" (1875), "Fəlatun bəylə Rakım əfəndi" (1875), Namiq Kamalın "İntibah" (1876), "Cəzmi" (1880), Sami Paşazadənin "Sərgüzəşt" (1887), Rəcaizadə Mahmud Əkrəmin "Araba sevdası" (1889), Nazim Nəbizadənin "Qarapipik" (1890), Xalid Ziya Uşaqlıgilin "Eşqi Məmnu" (1899) əsərləri ilə Türkiyə romanı yaranıb inkişaf etmişdir.

Azərbaycan ədəbiyyatında roman janrının aktuallıq

---

[24] Akçura, Y. Türkçülüyün tarixi / Y.Akçura. Bakı: Qanun nəşriyyatı, – 2010, – s.10

qazanmasında Mirzə Fətəli Axundzadə həm elmi-nəzəri, həm də bədii baxımından böyük xidmətlər göstərmişdir. Qərbdə gedən ədəbi prosesləri dərindən mütaliə edən M.F.Axundzadə dram və romanın çağın və gələcəyin əsas janrları olacağı ilə bağlı qənaətlərini bildirmişdir. Belə ki, o, müəllifi olduğu "Mirzə Ağanın pyesləri haqqında kritika" məqaləsində dram və romanın əhəmiyyətini *"Bu gün millət üçün faydalı və oxucuların zövqü üçün rəğbətli olan əsər – drama və romandır"*[25], – deyə qeyd etmişdir.

Fikirimizcə, Azərbaycan romançılığının əsasında da M.F.Axundzadənin "Aldanmış kəvakib" əsəri dayanmaqdadır. Təsadüfi deyil ki, özü də bu əsərini Qərb ədəbiyyatşünaslıq ənənəsinə əsaslanmaqla roman adlandırmışdır. Təbrizli Mirzə Yusif xana yazdığı məktubunda onun tarixi mənbədəki Yusif Sərrac əhvalatından kənara çıxması ilə bağlı qeydinə cavab olaraq yazmışdır: *"Mən məgər tarix yazmışam ki, təkcə baş verən hadisələri yazmaqla kifayətlənim. Mən kiçik bir məsələni əlimdə vasitə edib, öz təfəkkürümlə onu genişləndirərək, o dövrün nazirləri və dövlət başçılarının puçbeyinliyini açıb göstərmişəm ki, gələcək nəsillər üçün ibrət dərsi olsun və onlar səfeh münəccimlərin sözlərinə və xəbərlərinə inanmasınlar... Bu cür əsərlərə roman deyirlər"*[26]. Fikrimizcə, əsası M.F.Axundzadə tərəfindən qoyulan Azərbaycan romançılığı XIX əsrin sonlarına doğru Mirzə Əbdürrəhim Talıbovun "Kitab yüklü eşşək", Zeynalabdin Marağayinin "İbrahim bəyin səyahətnaməsi", Nəriman Nərimanovun "Bahadır və Sona" əsərləri ilə daha da inkişaf etmişdir.

Türk xalqları arasında maarifçilik hərəkatının inkişafında müstəsna yeri olan tatarların ədəbiyyatında roman XIX əsrin sonlarına doğru yaranmışdır. Tatarıstanın coğrafi mövqeyi, roman janrının daxili spesifik qanunları burada təşəkkül tapan nəsr nümunələrinin məzmun və formasına təsir etmiş və nəticədə Şərq düşüncəsi, sufi-fəlsəfi ideyaları, məsnəvi tərzi Qərb roman düşüncəsi ilə çuğlaşması, qovuşması nəticəsində XIX əsrin ikinci yarısında

---

[25] Axundzadə, M.F. Əsərləri. Üç cilddə. II cild / M.F.Axundzadə. Bakı: Şərq-Qərb, – 2005, – s.184

[26] Axundov, M.F. Əsərləri. Üçüncü cild / M.F.Axundov. Bakı: Elm, – 1988, – s.245

tatar maarifçi düşüncəsini ifadə edən nəsr əsərləri meydana çıxmışdır. Bu baxımdan, ilk tatar nəsrinin, romanın nümunələrində həm Qərb, həm də Şərq ədəbiyyatının, onların ədəbi kanonlarının təsirlərini görmək mümkündür. Musa Akeqetin "Hüsaməddin molla" əsəri (1886) ilk tatar romanı kimi tarixə keçmişdir. Müəllifin milli roman adlandırdığı əsər tatar maarifçi düşüncəsinin ideyalarını, hədəflərini özündə əks etdirən, tatar xalqının inkişafını arzulayan Hüsaməddinin oxucularla söhbətidir. Müəllif Hüsaməddinin diliylə tatar maarifçilik hərəkatına öz dəstəyini ifadə edərək onun bədii manifestini yazmışdır.

Qazax ədəbiyyatında roman janrı tarix baxımından qədim olmasa da, əsaslandığı mifoloji yaddaş, əsrlər boyu sözlə ötürülən şifahi-bədii düşüncənin daxili enerjisi sayəsində görkəmli yazıçıları və onların zəngin məzmuna malik əsərləri ilə daim seçilmişdir. XIX əsrdə görkəmli qazax maarifçisi İbray Altınsarinin kiçik maarifçi hekayələri ilə müasir qazax nəsri anlayışı formalaşmağa başlamışdır. İbray Altınsarin təkcə qazax nəsrini yaratmaqla qalmamış, qazax ədəbi dilinin, yeni tipli qazax məktəblərinin yaranmasında misilsiz xidmətlər göstərmişdir: "*İ.Altınsarinə qədər gerçək mənada ədəbi nəsr, yazılı qazax ədəbiyyatı yox idi. İ.Altınsarin qazax nəsrinin Qərb yönünün təməlini atdı və bu növün formalaşmasını təmin etdi. Hekayənin gözəl örnəklərini yazdı*"[27].

İbray Altınsarin, Çokan Vəlixanov və qazax ədəbi fikrinin simvolu hesab edilən Abay Kunanbayev üçlüsünün gərgin əməyi, fəaliyyəti nəticəsində yazılı qazax ədəbiyyatı möhkəm təməllər üzərində yaranıb inkişaf etmişdir. İbray Altınsarinin hekayələri, Çokan Vəlixanovun ədəbi-bədii yazıları və Abay Kunanbayevin "Qara sözlər"i qazax nəsrinin ilk mükəmməl nümunələri hesab edilməkdədir. Qazax ədəbiyyatında ilk roman nümunələri isə XX əsrin əvvəllərində yaranmağa başlamışdır. Miryaqub Dövlətoğlunun "Bəxtsiz Camal" (1910) əsəri həcm yığcamlığı, üslub baxımından orta əsr klassik poemalarını xatırlatsa da, sonrakı dövrlərdə inkişaf edəcək qazax romançılığına ciddi keçid funksiyasını icra etmişdir: *"Həcmi roman janrına görə kiçik olan "Bəxtsiz Camal" çox açıq*

[27] Ayan, E. Modern Kazak Edebiyatı önçüsü İbray Altınsarin / E.Ayan. İstanbul: Bilge kültür Sanat, – 2015, – s.33

*şəkildə nəzmdən nəsrə, xalq nağıllarından hekayəyə keçid özəlliyinə sahibdir. Əslində, "Bəxtsiz Camal" əsərindəki sevgisindən bəhs edilən Əli və Camal, Leyli və Məcnun, Fərhad və Şirin, Əsli ilə Kərəm arasındakı çox məşhur olan eşqlərdən fərqlənmir"*[28].

Özbək romanı Abdulla Qədirinin 1919-cu ildə yazmağa başladığı və 1926-cı ildə işıq üzü görən "Ötən günlər" əsəri ilə yaranmışdır. Müəllifin "bir həvəs" adlandırdığı "Ötən günlər" həm forma, həm məzmun komponentləri baxımından olduqca kamil nəsr nümunəsidir. Abdulla Qədiri özü romanı haqqında təvazökarlıqla bəhs edir və "Ötən günlər"in özündən sonra böyük bir romançılıq ənənəsinin yaranacağına inamını ifadə edir: *"Yazmaq istədiyim bu "Keçmiş günlər" yeni dövr romançılığı ilə tanış olmaq yolunda kiçik bir təcrübə, daha doğrusu, bir həvəsdir. Məlumdur ki, yeniləşdirmə ilk dövrlərdə bir çox əksiklikləri ilə meydana gəlir; o bu sahədə olan insanların köməyi ilə yavaş yavaş düzələrək, təkamülə, inkişafa doğru gedir"*[29].

Üç hissəli "Ötən günlər" romanında özbək ictimai həyatı tarixində milli ideallar uğrunda apardığı mübarizəsi ilə adını tarixə yazan A.Qədiri XIX əsrdə baş verən hadisələr fonunda həm tarixə ekskurs edir, baş verən hadisələri canlandırmağa çalışır, həm də çar Rusiyasının apardığı işğalçılıq siyasətinin mahiyyətinə varmaqla bolşeviklərin də xarakterinə eyham vurmuş olur.

1930-cu illərdə sosialist realizminin rəsmən elanından sonra yerli türk xalqlarının bu çərçivədə ədəbiyyatlarının inkişaf etdirilməsi qarşıya məqsəd kimi qoyulurdu. Bu baxımdan, roman ənənəsi hələ yaranmayan türk xalqlarında ideologiyanın tələbi ilə ilk nümunələri meydana çıxmağa başladı. Qırğız ədəbiyyatında roman ənənəsi sosrealizmin prinsipləri, ideologiyanın cəmiyyət qarşısında qoyduğu tələblərə uyğun şəkildə 1930-cu illərdə meydana gəlmişdir. Mukay Elebayevin "Uzaq yol"(1936) əsəri qırğız ədəbiyyatında ilk roman nümunəsi kimi tarixə keçmişdir. 1916-cı ildə baş vermiş Ürkün hadisələrindən bəhs edilən romanda qırğızların əsrin

---

[28] Arıkan, M. Kazak edebiyatında ilk roman – Bakıtsız Jamal / M.Arıkan. Turkish Stuides. Volume 3/8, – s.41-42

[29] Qədiri, A. Ötən günlər (özbəklərin həyatından tarixi roman) / tərcümə edən Xalid Səid Xocayev / A.Qədiri. Bakı: Təhsil, – 2023, – s.14

əvvəllərindəki həyatı etnoqrafik cizgilərlə oxuculara təqdim edilmişdir. M.Elebayevlə eyni vaxtlarda Aali Tokombayevin “Qanlı illər” romanı da işıq üzü görmüşdür.

Türkmən ədəbiyyatında roman janrı sosialist realizminin ifadəçisi, ideologiyanın təsiri ilə yaranan janr olmuşdur. İlk türkmən romanı kimi Berdi Kerbabayevin “Qəti addım” (1940) əsəri qəbul edilmişdir. Bundan daha öncə, Xıdır Dəryayevin “İqbal” (1937), Ata Qovşudovun “Fərman” (1939) romanları çap edilmişdir. Lakin ideoloji tələblərə uyğunluğu baxımından “Qəti addım” türkmən ədəbiyyatında ilk roman olaraq qəbul edilmişdir. Başqırd romanının təşəkkülü də ötən əsrin 20-30-cu illərinə təsadüf edir. Əfsəl Tahirovun “Əsgərlər”, Qaynan Xayrinin “Döngə” əsərləri ilə başqırd romanının ilk nümunələri meydana çıxmışdır.

Şərqi Türküstanda qədim və zəngin Qaraxanlı mədəniyyətinin varisi olan uyğurların ədəbiyyatında roman janrının ilk nümunəsi 1949-cu ildə qələmə alınmışdır. Buna baxmayaraq, ictimai-siyasi təzyiqlər ucbatından Məhəmməd Əmin Tohtinin müəllifi olduğu “Qanlı torpaq” romanı yalnız 1970-ci illərdə işıq üzə görə bilmişdir. Uyğur romanı özünün sistemli inkişaf dövrünü 80-ci illərdə yaşamışdır. Beləliklə, paraqrafda dünya ədəbiyyatında roman janrının meydana çıxması və bu kontekstdə türk xalqları romanının formalaşması tədqiq olunmuşdur.

Dissertasiyanın ilk fəslinin ikinci paraqrafı *“1980-ci illər Azərbaycan romanının janr tipologiyası”* adlanır. Bu paraqrafda müstəqillik ərəfəsində Azərbaycan romanında dəyişmələr, tarixi mövzuların aparıcılıq təşkil etməsi, mifə dönüş və repressiya mövzusunun nəsrdə inikası məsələləri araşdırılır. Bu zaman Azərbaycan romanının üfüqləri daha da genişlənir. 1960-1980-ci illərdə əldə edilən uğurlar, ədəbiyyatımızın inkişaf stixiyası bu dövrü ayrıca mərhələ kimi şərh etməyə imkan verir. *“Bu tarixi mərhələdə ədəbiyyatda sosialist realizmi yaradıcılıq metodunun tələb etdiyi ideoloji mühitin fövqündə ümummilli ideyaları, xalqın taleyində, ictimai-mənəvi təkamülündə mühüm rolu olmuş böyük şəxsiyyətlərin mübarizəsini təsvir və tərənnüm edən geniş masştablı əsərlər*

*meydana çıxmışdır"*[30].

Azərbaycan romanı bu dövrdə dünya nəsr ənənəsi, onun inkişaf meyilləri ilə daha çox dialoq qurmağa, onun aparıcı sturktur və məzmun elementlərini "özününküləşdirməyə" başlayır. Təbii ki, bu dialoq milli şüurun özünüifadə kontekstində baş verir, Azərbaycan ədəbiyyatında tarixi roman ənənəsi güclənməyə başlayır.

Fərman Kərimzadənin "Təbriz namusu" romanında Təbriz azadlığın, milli mübarizənin simvolu kimi təsvir edilir. Müstəqillik ərəfəsində olan ölkəmizin ədəbiyyatında önə çıxan əsas tarixi simvol Şah İsmayıl Xətai və onun dövründə baş verən hadisələrdir. Əzizə Cəfərzadənin "Bakı-1501", Fərman Kərimzadənin "Xudafərin körpüsü" və Əlisa Nicatın "Qızılbaşlar" romanlarında XVI əsrin əvvəllərində Azərbaycan və onun qüdrətli hökmdar Şah İsmayıl Xətainin obrazı canlandırılmışdır. Hər üç romanda Şah İsmayıl Xətaidən qüdrətli hökmdar, Azərbaycanın bütövlüyü uğrunda mübarizə aparan sərkərdə kimi bəhs olunur. Təsadüfi deyil ki, Azərbaycan ictimai-mədəni təfəkküründə Azərbaycanın bütövlüyünün simvoluna çevrilən Şah İsmayıl Xətainin bu miqyasda dərkində ədəbiyyat faktoru, onun haqqında yazılmış tarixi romanlar mühüm rol oynamışdır.

Sovet dövrünün ən qəddar və amansız hadisəsi olan repressiya bir sıra aparıcı türk xalqları ədəbiyyatının nəsrində olduğu kimi, Azərbaycan romanında da əsas müraciət obyektinə çevrilmişdir. Elçinin "Ölüm hökmü", Yusif Səmədoğlunun "Qətl günü" romanlarında 1930-cu illərin qaranlıq hadisələri, repressiyanın gerçəklikləri bədii mətnin dili ilə oxuculara çatdırılmışdır. İsa Hüseynovun "Yanar ürək", Şıxəli Qurbanovun "Sənsiz", İsmayıl Şıxlının "Ayrılan yollar", "Ölən dünyam", Sabir Əhmədlinin "Görünməz dalğa", Mehdi Hüseynin "Yeraltı çaylar dənizə axır" əsərlərində repressiya mövzusu bədii-estetik planda işlənmişdir.

Azərbaycan romanında mifologizm bu zaman çərçivəsində özünün aydın konturları ilə görünməyə başlamışdır. Mövlud Süleymanlının "Köç", "Ceviz qurdu", "Səs", Yusif Səmədoğlunun

---

[30] Həbibbəyli, İ. Ədəbi şəxsiyyət və zaman / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2017, – s.786

“Qətl günü”, Elçinin “Mahmud və Məryəm” romanlarında hadisələr şifahi bədii düşüncə, mifoloji qatla iç-içə təqdim edilmişdir.

Fəslin üçüncü *“1980-ci illər qırğız romanında mifoloji struktur və milli yaddaş”* adlı paraqrafında qırğız romanının sovet dövründə yaranması, keçdiyi inkişaf yolu və 80-ci illərdə böyük qırğız yazıçısı Çingiz Aytmatovun romanlarındakı mifoloji məzmun, milli yaddaş uğrunda mübarizə məsələləri təhlil edilir. Bu illərdə Ç.Aytmatovun “Gün var əsrə bərabər” və onun davamı xarakterində olan “Çingiz xanın ağ buludu”, “Qiyamət” əsərləri təkcə qırğız ədəbiyyatının deyil, sovet imperiyasının tərkibində yaşayan türk xalqlarının ədəbi-bədii fikrinə ciddi təsir göstərmişdir.

Ümumilikdə, qırğız ədəbiyyatı XX əsrdə keşməkeşli inkişaf yolu keçmişdir. Zəngin şifahi bədii yaradıcılığa, “Manas” kimi nəhəng dastana sahib olan qırğızların yazılı ədəbiyyatı sovet dövründə yaranıb inkişaf etdi. Sovetlərin apardığı kütləvi təhsil siyasətinin nəticəsində qırğız yazılı dili formalaşmış, qırğız mətbuatının meydana gəlməsi ilə qırğız dilində ilk bədii əsər nümunələri yazılmışdır. 1930-cu illərdə Mukay Elebayevin “Uzaq yol” və Aali Tokombayevin “Qanlı illər” əsərləri ilə yaranan qırğız romanı sərt ideoloji qəliblərin çərçivəsində özünün inkişaf yolunu müəyyənləşdirmiş və 1980-ci illərə qədər ciddi əsaslarla gəlib çatmışdır. Qırğız ədəbiyyatının dünya miqyasında nümayəndəsi olan Çingiz Aytmatovun yaradıcılığı ilə bu romançılıq özünü ən yüksək ədəbi-bədii meyarlarla ifadə etmiş oldu. Çingiz Aytmatovun müəllifi olduğu “Gün var əsrə bərabər” romanı bədii planda sovetizmin mahiyyətini göstərən nəsr nümunələrindən biri olmuşdur. Yazıçı otuz illik yaradıcılıq təcrübəsini, bacarıqlarını ən yüksək səviyyədə bu əsərdə ifadə etmişdir. “Ağ gəmi” əsərində rüşeym şəklində görünməyə başlayan mifoloji məzmun bu romanda milli yaddaşı ifadə edən fakt kimi bütün dərinliyi ilə əks olunmuşdur. Çingiz Aytmatov türk xalqlarının başına gətirilən ağrılı repressiyanı romanda bütün aydınlığı ilə yazmışdır. Abutalıb Kutubbayev obrazı ilə minlərlə türk ziyalısına ədəbi-bədii planda abidə qoymağı bacarmışdır. Sovet imperiyasının və ondan öncə Çar Rusiyasının apardığı müstəmləkə siyasətinə manqurtlaşma tərifini verən yazıçı quruluşun bütün mahiyyətini gözlər önünə sərmiş və nəticədə bu

quruluşda yaşamağın qeyri-müəyyənliyi bir daha aşkar olmuşdur. Qırğız nəsri 80-ci illərdə məhz Çingiz Aytmatov nəsri ilə dünya miqyasında özünü ən yüksək səviyyədə ifadə etmişdir.

Fəsildə əldə olunan əsas elmi nəticələr aşağıdakı nəşrlərdə öz əksini tapmışdır.[31]

Dissertasiya işinin *“1980-ci illər Türkiyə romanı: modernlə postmodernin qovşağında”* adlanan ikinci fəslində zəngin nəsr ənənəsi olan Türkiyə romanının təkamül yolundan bəhs olunur. Fəsildə XIX əsrin ikinci yarısında, Tənzimat dövründə Türkiyə romanının yaranması, realist ənənə üzərində Cümhuriyyət dövründə 1950-60-cı illərə qədər inkişafı və Əhməd Həmdi Tanpınardan başlayaraq modern üslubda yeniləşməsi tədqiq edilmişdir.

*“Türkiyə romanında yeni struktur başlanğıcı: Əhməd Həmdi Tanpınardan Orxan Pamuka”* adlı ilk paraqrafda Əhməd Həmdi Tanpınarla başlanan Türkiyə romanında modernləşmənin 80-ci illərdə Orxan Pamukun yaradıcılığı ilə zirvə nöqtəsinə çatmışdır.

---

[31] Гасанлы, М. Стилистический контекст в романе «И дольше века длится день»: от буранного к космосу // Киев: Науковий вісник Міжнародного гуманітарного університету. Сер.: Філологія, – 2020. 44, – с.82-87; Həsənli, M. Çingiz Aytmatovun romanları mətnlərarası əlaqələr kontekstində // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2021. 1, – s.42-45; Həsənli, M. Çingiz Aytmatovun “Kassandra damğası” romanında xaosmos // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, 2022. 1, – s.35-39; Həsənli, M. Fərman Kərimzadənin “Təbriz namusu” əsərində tarix və müasirlik // Bakı: Filologiya məsələləri, – 2024. 8, – s.328-332; Həsənli, M. “Qiyamət” romanında dünyanın sonu və xilas konsepsiyası // Bakı: Second İnternational Scientific Conference of Young Scientists and Specialists, 3-6 mart 2020-ci il, – s.412-415; Hasanli, M. Functionality of mythical memory in Movlud Suleymanli’s novel «Nomad» // Warsaw: Proceedings of the 5th International Scientific Conference «Research Retrieval and Academic Letters», 21-22 march, 2024, – s.290-293; Həsənli, M. Türk xalqları romanının yaranması və inkişaf meyilləri // Bakı: VIII international scientific conference of young researchers. Proceedings, 26-27, april, 2024, – s.1909-1913; Həsənli, M. Azərbaycan romanının yaranması və ilkin inkişaf dövrü // Navoiy: O‘zbekıston Respublıkası Olıy ta’lım, Fan va Innovatsıyalar Vazırlıgı Navoıy Davlat Pedagogıka Instıtutı “Globallashuv Davrıda Turkıy Tıllar Integratsıyası” mavzusidagi xalqaro ilmiy-amaliy konferensiya, 24 may 2024, – s.142-144; Çingiz Aytmatov fenomeni və Azərbaycan // Bakı, “Elm və təhsil”, – 2020, – 406 s.; Cengiz Aytmatov fenomeni ve Azerbaycan // Ankara, “Bengü” yayınları, – 2023, – 332 s.

XIX əsrin sonları, eləcə də XX əsrin 60-70-ci illərinə qədər Türkiyə romanı sosial motivlərin üzərində qurulmuş realist romanlardır. Ədəbiyyatın güzgü funksiyası, birəbir inikas bu dövr Türkiyə romanında başlıca prinsip olmuş, hətta romantik inikas belə bir çox hallarda realizmin tərs tərəfi kimi qəbul edilmişdir: *"Bir əsər nə qədər realist olaraq təriflənərkən, bir digəri üçün isə romantik sözü çox vaxt estetik mənada dəyərsiz, önəmsiz olaraq istifadə edilmişdir"*[32].

Belə bir kontekstdə modernist axınların ədəbiyyata daxil olmasını mövcud ədəbiyyatın özü əngəlləmişdir. Türkiyə ədəbiyyatının istər elmi-nəzəri baxımından, istərsə də bədii-estetik planda modernləşməsində Əhməd Həmdi Tanpınar fenomeni mühüm rol oynamışdır. Əhməd Həmdi Tanpınar bədii-estetik görüşləri ilə yeni, modern Türkiyə romanının nəzəri əsaslarını irəli sürmüşdür. XIX əsr Türkiyə ədəbiyyatı ilə bağlı apardığı ardıcıl tədqiqatlarda Tənzimatdan sonra dəyişməyə başlayan ədəbiyyatın forma və məzmun keyfiyyətləri araşdırılmışdır. *"Tanpınar özünü və çevrəsini, yaşanmış və xatarılanan şeyləri; tarix, kültür və mədəniyyət şərtlərini didik-didik edən, keçmişi davamlı izah edərək onu bu günə qazandırmağa çalışan, davam zəncirinin bir halqası olduğunu unutmayan və mədəniyyət dəyişikliyini bütün ölçüləri ilə qavramış bir yazardır"*[33].

Əhməd Həmdi Tanpınarın "Saatları qurma İnstitutu" əsərindəki zaman anlayışı modern estetikanın faktı kimi diqqəti cəlb edir. Ümumiyyətlə, yazıçı yeni Türkiyə romanının həm nəzəri, həm də paraktiki olaraq yaranıb inkişaf etməsində böyük rol oynamışdır.

1970-ci illərdən başlanan yeni ədəbi proses 1980-ci illərdə daha geniş vüsət alaraq ədəbiyyatda ciddi transformasiya proseslərinin yaranmasını şərtləndirmişdir. Əksər Türkiyə ədəbiyyatşünasları 1970-ci illlərin sonu - 1980-ci illəri Türkiyə nəsrində roman janrının dəyişikliyə, transformasiyaya uğraması məsələsinə toxunmuşlar. Oğuz Atayın "Tutunamayanlar" romanı

---

[32] Ecevit, Y. Türk romanında postmodern açılımlar / Y.Ecevit. İstanbul: İletişim yayınları, – 2001, – s.84

[33] Balcı, Y. Bir sanatkarın bilim adamı olarak portresi: Ahmet Hamdi Tanpınar / Y.Balcı. Turkish Studies. Volume 4/1-I, 2009, – s.12

Ceyms Coysun "Uliss"i ilə müqayisə edilərək, bir növ eyni estetikada yazılmış əsər kimi 1970-ci illər Türkiyə yeni romançılığının əsas başlanğıc nöqtəsi, mükəmməl zirvəsi hesab olunmuşdur. Modernlə yanaşı metatəhkiyə anlayışını öz içində ehtiva edən Oğuz Atay yaradıcılığı Türkiyə postmodern romançılığının inkişafina ciddi təsir göstərmişdir. Ümumiyyətlə, bu dövr türk romanlarında modernist və postmodern elementlər birlikdə iştirak edirlər. Y.Ecevitin yazdığı kimi:*"İlk avanqardist türk romanları modern və postmodern xüsusiyyətləri ədəbiyyata eyni mətndə gətirməyə başladılar. Postmodern romanın modernist özəlliklərdən böyük ölçüdə təcrid olunmuş örnəklərinin ilk dəfə 90-cı illərdə ortaya çıxmasının səbəbi modernizmin türk ədəbiyyatına 70 illik gecikməylə daxil olmasından qaynaqlanır"*[34].

Yusif Atılqanın "Anayurd oteli" (1973) əsəri kafkasayağı üslubda qələmə alınmış və Oğuz Ataydan sonra modernist yeni Türkiyə romanının ilk nümunələrindən biri hesab olunmaqdadır. 1980-ci illər öncəsi yeni Türkiyə romanın üçlüsünü Fərid Edgünün yuxu ilə gerçəkliyin iç-içə təqdim edildiyi, magik realist elementlərə malik "Hakkaridə bir mövsüm" romanı tamamlayır. Beləliklə, Oğuz Atay, Yusif Atılqan və Fərid Edgü 1970-ci illərdə Türkiyə romanının yeni inkişaf xəttini müəyyən edən yazıçılar olmuş və bu istiqamət başda Orxan Pamuk olmaqla, Əhməd Altan, Lətifə Təkin, Mehmet Əroğlu, Bilge Karasu, Ədalət Ağaoğlu, Leyla Ərbil tərəfindən inkişaf etdirilmişdir.

XX əsrin əvvəllərindəki təlatümlü tarixi situasiyanın yaratdığı insanın tənhalaşması, yadlaşması və bu problemin nəsrdə yaratdığı kafkasayağı üslubu 80-ci illər Türkiyə nəsrinin əsas yaradıcılıq istiqamətinə çevrilmişdir. Mehmet Əroğlu, Əhməd Altan, Bilgə Karasu, Leyla Ərbil yaradıcılığında modernizmin ədəbiyyatda üç yaradıcısından biri hesab olunan Frans Kafka yaradıcılığının təsirləri aşkar şəkildə hiss olunmaqdadır.

Bu dövr Türkiyə romanı ilə bağlı müxtəlif tipoloji bölgülər aparmaq mümkündür. Hər şeydən əvvəl, zəngin ənənəyə malik Türkiyə nəsri ciddi təkamül, dəyişmə prosesini yaşamışdır. Bu

---

[34] Ecevit, Y. Türk romanında postmodern açılımlar / Y.Ecevit. İstanbul: İletişim yayınları, – 2001, – s.86

baxımdan Türkiyə romanını iki hissəyə bölmək olar. Birincisi, realist süjet və kompozisiya quruluşlu, tarixi və çağdaş mövzuları ənənəvi üsulla təqdim edən romanlardır. İkinci istiqaməti isə tədqiqatımızın da fokuslandığı modern və postmodern estetika ilə yazılmış, ənənəvi süjet quruluşunu inkar edən, yeni təhkiyə strukturu, fərqli cərəyanların elementlərini özündə ehtiva edən roman nümunələri təşkil etməkdədir.

XX əsrdə dünyada olduğu kimi Türkiyə ədəbiyyatında roman janrı digər ədəbi janrlarla müqayisədə funksionallığı ilə seçilmiş, əsrin hər onilliyində onlarla romanlar yazılmışdır. 1970-ci illərin sonu 1980-ci illərin əvvələrindən başlayaraq Türkiyə romanında janr transformasiyası baş vermis, ənənəvi roman tipindən fərqlənən, Qərb roman texnikasının təsiri ilə əsərlər yazılmağa başlanmışdır. Qeyd etdiyimiz dövrün Türkiyə romanı tarixində xüsusi əhəmiyyət kəsb edən dəyişmə dönəmi olduğunu bu dövrün tanınımış tədqiqatçıları da etiraf edir: *"Tərcümə, təqlid və nümunə götürmək mərhələlərini geridə qoyan türk romanı son on ildə (70-ci illərlə 80-ci illərin əvvəlləri) Qərbin təhkiyə texnikası yeniliklərini yerli mövzulara tətbiq edərək forma və məzmun uyğunluğunu təşkil edən milli sintezi gerçəkləşdirmişdir"*[35].

Türkiyə romanı bu illərdə ciddi transformasiya prosesi yaşayaraq özündən sonrakı mərhələ üçün başlanğıc, bazis funksiyasını icra etmişdir. 70-ci illərdən formalaşmağa başlayan yeni Türkiyə romanı, postmodern elementlərin olduğu və daha çox modernist estetika ilə yazılan nəsr nümunələri ilə seçilmişdir. Bu mərhələyə qədər realist əsaslarda inkişaf edən Türkiyə romanında yeni yanaşmanın meydana çıxması dövrün ictimai-siyasi hadisələri, ard-arda baş verən çevrilişlərlə birbaşa bağlı idi. Məhz belə bir ictimai-siyasi situasiyanın ədəbiyyatda, xüsusilə romanda proyeksiyası ənənəvi yanaşmanın suya düşməsini, kənara qoyulmasını şərtləndirirdi. Modernist ədəbiyyatın üç yaradıcısı Ceyms Coys, Marsel Prust və Frans Kafka bu dövr romançılığının əsas ideya-məzmun qaynağını təşkil etməkdə idi. Forma baxımından ənənəvi səbəb-nəticə əlaqəli ifadə tərzi yerini müasir təhkiyə nəzəriyyələrinin

---

[35] Aytaç, G. Çağdaş türk romanı üzerine incelemeler / G.Aytaç. –Ankara: Doğu Batı Yayınları, – 2012, – s.28

tətbiq olunduğu, ifadə texnikasını müxtəlif variantlarda təqdim edildiyi romanlar yazılmağa başladı. Məzmun baxımından fərdə, onun daxili dünyasına fokuslanmaq, insanın hiss və duyğularının, düşüncələrinin dərin qatlarını açıb meydana qoymaq, yadlaşmanın müxtəlif təbəqələrini və insanın özünü, kimliyini axtarışları göstərmək bu dövr romançılığı üçün əsas xarakterik xüsusiyyətlər idi. Əsasən Oğuz Atay, Fərid Edgü və Yusif Atılqanla başlanan yeni Türkiyə romanı Orxan Pamukun yaradıcılığı ilə qısa bir zamanda moderndən postmodernə keçid prosesini yaşadı və modernizmin ən müxtəlif istiqamətləri, magik realist və postmodernist romanları ilə Türkiyə nəsrinin bu dövrü özünəməxsus təkamül prosesi, dəyişməsi ilə diqqəti cəlb etdi. Bilgə Karasunun "Gecə" romanı fərqli təhkiyə strukturu baxımından Türkiyə nəsrində fərqlənmişdir. Lətifə Təkinin "Sevgili arsız ölüm" romanı ilə magik realist ədəbiyyatın əsası qoyulmuşdur.

Fəslin *"Orxan Pamukun romanlarında gerçəkliyə estetik refleksiya"* adlı ikinci paraqrafında Orxan Pamukun romanlarında moderndən postmodernə keçid 1980-ci illər kontekstində araşdırılır.

XX əsrdə, xüsusən də əsrin ikinci yarısında ən yaxşı dünya romançıları miqyasına yüksələ bilən yazıçılar arasında türk yazıçısı Orxan Pamuk imzası da vardır. Orxan Pamuk XX əsrin 80-ci illərindən başlayaraq yeniləşməyə, transformasiyaya başlayan Türkiyə romanın əsas istiqamətverici imzası olmuşdur: *"1980-ci illərdən başlayaraq, Türk nəsrində də yeni tendensiyalar özünü büruzə verməyə başlamışdı. Yusif Atılqan, Bilgə Karasu, Oğuz Atay və başqa bu kimi yazıçıların qələmə aldıqları yeni tərzdə romanlar az da olsa oxucuların marağına səbəb olurdu. Bu axına qoşulan "Cövdət bəy və oğulları" romanı da 1982-ci ildə nəşr olunduqdan sonra böyük oxucu rəğbəti qazanmışdır"*[36].

Orxan Pamuk Türkiyə və ümumilikdə Türk dünyasının postmodern romançılığının dünya miqyasında ən böyük təmsilçilərindən biridir. O, ilk romanı olan "Cövdət bəy və oğulları"ndan başlayaraq hələlik son romanı "Vəba gecələri"nə qədər əsərlərinin əsas obyekti Türkiyə və türk insanıdır. Özü də hər zaman qürurla bir türk yazıçısı olduğunu, İstanbulu yazdığını bildirmişdir:

[36] Əliyev, M. Dünya nəsrində Orxan Pamuk zirvəsi / M.Əliyev. Dünya ədəbiyyatı dərgisi, –2020, 1,– s.163

*“Mənim üçün İstanbulu digər şəhərləri, başqa ölkələri, evləri, həyatları, dünyaları ilə, müqayisə edə biləcəyim başqa bir şəhər, ölkə, vətən, ev yoxdur. Bəzən yalnız İstanbullu olduğum üçün, oranın yazıçısı olduğum üçün özümü uğurlu hesab edirəm: Şəhər minlərcə yazıçıya yüzlərlə il yetəcək qədər hekayəylə qaynaşır”*[37].

Orxan Pamuk romançılığa 1974-1978-ci illər aralığında yazdığı, 1982-ci ildə nəşr olunmuş “Cövdət bəy və oğulları” əsəri ilə başlamışdır. Özünün də çox sonralar qeyd etdiyi kimi, Tomas Manın "Buddenbroklar" və Lev Tolstoyun “Anna Karenina” romanlarının təsiri ilə avtobioqrafik elementlərin aparıcılıq təşkil etdiyi “Cövdət bəy və oğulları” ailə romanıdır. *“Amma mənim romanım Mannın romanı kimi yalnız bir ailənin deyil, məhz “Anna Karenina” kimi bir cəmiyyətin rəsmi olmaq məqsədini daşıyırdı”*[38].

Orxan Pamukun sayca ikinci romanı “Səssiz ev”də (1983) bir ailənin timsalında Türkiyənin XX əsrdə keçdiyi yol və yazıçının 80-ci illərdəki ictimai-siyasi vəziyyətə münasibəti öz əksini tapmışdır. Bir çox cəhətləri ilə (bir ailənin timsalında cəmiyyətdəki dəyişimləri təsvir etmək) bu roman öncəki “Cövdət bəy və oğulları”nın və sonrakı “Qara kitab” (Nilgünün ideyaları və taleyi ilə Röyanın düşüncələri və taleyi), “Bəyaz qala” (Roman “Səssiz ev”dəki Faruq Darvinolunun axtarışlarının nəticəsində tapılan əlyazma mətni olması) romanları ilə vahid silsilə yaratmış olur.

“Səssiz ev”i Qabriel Qarsiya Markesin “Yüz ilin tənhalığı” romanında (Makondo) olduğu kimi öz məkanlarında (Qəbzə yaxınlığındakı Cənnəthisardakı ev) tənhalığa məhkum edilmişlər. Bu tənhalıq ilk növbədə düşüncədə yaşanır. XX əsrdə xalqın keçdiyi yol və Səlahəddindən başlayaraq ailə üzvlərinin bir-birindən fərqli düşüncələri (bəzən də bir-birinə daban-dabana zidd olan) onları tənhalaşdırmış, müəllifin də adlandırdığı kimi səssiz bir evdə yaşamağa məhkum etmişdir: *“Romandakı hər bir personaj öz içində qarşıdurma, uyğunsuzluq və dəyişmə yaşayarkən, bu gərginliyi həm bir-birilərinə ötürməkdə, həm də bir yerdə qalmaqdan uzaqlaşa*

[37] Pamuk, O. Benim İstanbulum / Manzaradan parçalar / O.Pamuk. – İstanbul: İletişim yayınları, – 2010, – s.143

[38] Pamuk, O. Cevdet Bey ve Oğulları / O.Pamuk. İstanbul: Yapı Kredi yayınları, – 2013, – s.579

*bilməməkdədilər"*[39].

Romanda Orxan Pamukun demək olar ki, bütün əsərlərinin mövzusu olan Şərq-Qərb dilemması əsas xətlərdən birini təşkil edir. Şərq-Qərb ziddiyətini birinci nəsil qatında, Səlahəddinlə Fatmanın münasibətlərində aydın görmək mümkündür. Səlahəddin İttihad və Tərəqqi ilə uzlaşmayan, Tələt paşanın təhriki ilə İstanbulu tərk etmək məcburiyyətində qalan Qərb dünyagörüşlü həkimdir. Bu baxımdan Şərqli xanımı Fatma ilə daim aralarında ziddiyyət mövcud olmuşdur. Səlahəddinin ömrünü ensiklopediyanın tərtibinə, yazılmasına sərf etməsi və dünyagörüşü ilə Fatmanın mühafizəkar baxışları arasındakı ziddiyyət Orxan Pamukun əsas mövularından biri olan Şərq-Qərb probleminin təsviri baxımdan diqqəti cəlb edir. Şərqin ontoloji düşyagörüşü ilə Qərbin epstimoloji baxışlarının ziddiyyətini Səlahəddin bəy öz ensiklopediyasının bəndlərində göstərir. *"Təcrübəyə söykənməyən və təcrübə ilə təsdiq olunmayan heç bir bilik əsas sayıla bilməz"*[40].

Orxan Pamukun nəsrində postmodern ənənənin oturuşması, intertekst, kollaj  və digər cərəyan elementlərinin sistemli istifadəsi baxımından "Bəyaz qala" (1983) romanı xüsusi əhəmiyyətə malikdir. "Bəyaz qala" romanında Şərq-Qərb qarşılaşması, bəzən də qarşıdurması fonunda insan şəxsiyyətinin, kimliyinin axtarışı əsas xətt kimi keçməkdədir. Müxtəlif mətnlərin bəzən də alluziya şəkildə istifadə edilərək kollaj edildiyi romanda başlıca motiv Venesiyalı kölə ilə Osmanlı Xocasının dialoqunda üzə çıxır. Onların bir-birinə hədsiz bənzərliyi üzərində müəllif özünün ziddiyyətli təhkiyə strukturu olan romanının kompozisiyasını qurmuşdur. *"Bu romanda iki ayrı dünyanın, iki müxtəlif mədəniyyətin təsviri verilmişdir. Ruh ekizi olan Xoca və Venesiyalı, ağa-kölə münasibətləri içərisində iqtidar uğrunda mübarizəyə girirlər. İki ayrı mədəniyyəti təmsil edən Xoca və Venesiyalı kölə eyni zamanda Qərb və Şərq düşüncə modelini simvollaşdırmışlar. Pamukun ilk iki əsərində Türkiyə daxilində təsvir olunan bu problem, bu romanda Şərq və Qərb*

---

[39] Pugat, S. Suya Yazı Yazan Adam / Orhan Pamuk'un Sessiz ev romanı üzerine (inceleme).https://sercanpugatdot000webhostappdotcom.wordpress.com/2019/02/14/orhan-pamukun-sessiz-ev-romani-uzerine-inceleme/

[40] Pamuk, O. Səssiz ev / O.Pamuk. Bakı: Qanun Nəşriyyatı, – 2014, – s.268

*modelində qarşımıza çıxmışdır"*[41].

Romanda lokal çərçivədə fərdin özünün kimliyini, şəxsiyyətini itirməsi və durmadan onun axtarışı, geniş kontekstdə isə Şərqlə Qərbin bir-birinə qarşılıqlı diffuziyası, xüsusən Qərbin təsirləri ön planda təsvir edilmişdir.

1970-ci illərin sonu və 1980-ci illərdən etibarən Türkiyə ədəbiyyatında roman janrı transformasiya prosesindən keçərək, yeni keyfiyyətlər qazanmağa başlamışdır. Bu prosesin əsas yaradıcı şəxsi, heç şübhəsiz ki, Orxan Pamuk olmuşdur. Orxan Pamuk 1989-cu ildə tamamladığı "Qara kitab" romanı ilə təkcə öz yaradıcılığını deyil, ümumilikdə bu dövr türk romançılığını yeni bir mərhələyə yüksəltmişdir. Əhatə etdiyi çoxcəhətli problematikası (insanın yadlaşması, kimlik axtarışı, 1980-ci illər Türkiyədə ictimai-siyasi mühitin reallıqlarının təsviri), çoxsaylı tarixi və müasir əsərlərin (Mövlanə və Şəmslə bağlı əhvalatlar, "Min bir gecə nağılları", Fəzlullah Nəimi və hürufizmlə bağlı mətnlər, Şeyx Qalibin "Hüsn və Eşq" poeması, Marsel Prustun "Albertinin qeybi" romanı, Frans Kafkanın "Çevrilmə"si və s.) mətnlərarası əlaqə kontekstində kompozisiyaya daxil edilməsi Türkiyə romançılığında yeni bir hadisə idi. Dünyaca məşhur nəzəriyyəçi Jak Derridanın elmə gətirdiyi dekonstruksiya, dünyanın vahid mətn kimi qavranılması Orxan Pamukun "Qara kitab" romanında əsas janr, təyinedici element kimi iştirak etməkdədir.

Orxan Pamukun "Qara kitab" əsəri Türkiyə postmodern ədəbiyyatının manifesti sayıla biləcək romanlardan biridir. Tədqiqatçılar bu əsəri Pamuk yaradıcılığının zirvə romanı kimi xarakterizə edirlər. Zaman və məkanca bir-birindən fərqlənən əsərləri kollaj edərək, bir kompozisiya üzərinə yerləşdirən və nəticədə 80-ci illər ölkəsinin gerçəkliklərinə işıq salmağı bacaran Orxan Pamukun "Qara kitab" romanı təkcə türk ədəbiyyatında deyil, ümumilikdə dünya nəsrində özünəməxsus yer tutmaqdadır.

Beləliklə, Orxan Pamuk təkcə öz yaradıcılığı üçün deyil, ümumilikdə Türkiyə romançılığı üçün olduqca orijinal, dünya

---

[41]Məmmədxanlı, A. Orxan Pamukun yaradıcılığı / A.Məmmədxanlı. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. – Bakı, – s.21

nəsrində özünə yer tuta biləcək romanlarını yazdı. "Cövdət bəy və oğulları" romanında nisbətən ibtidai şəkildə olan nəzəri təcrübə, yazıçılıq texnikası "Səssiz ev"də modern xəttlə inkişaf elədi. Pamukun müəllifi olduğu "Bəyaz qala" və "Qara kitab" romanları Türkiyə nəsrində moderndən postmodernə keçidi xarakterizə edən nəsr nümunələri kimi meydana çıxdı. Orxan Pamukun yaradıcılığına xas mətnlərarası əlaqələr prinsipindən ustalıqla yararlanmaq, alluziya effekti ilə Şərq və Qərb ədəbi-bədii mənbələrini mətnə daxil etmək texnikasını bu romanlarda görmək mümkündür. Beləliklə, Orxan Pamuk bu illərdə yazmış olduğu dörd romanı ilə Türkiyə modernist ədəbiyyatının oturuşmasına və postmodern romançılığının möhkəm özüllərlə yaranmasına əsas yaratdı.

Dissertasiyanın bu fəslinin *"Türkiyə romanında kafkasayağı tendensiyalar: Mehmet Əroğlunun romanları əsasında"* adlanan üçüncü paraqrafı Mehmet Əroğlunun modern üslubda, kafkasayağı tərzdə yazdığı romanları araşdırılmasına həsr edilmişdir. Bu illərdə janr baxımından yenilənən, dəyişən Türkiyə romanında kafkasayağı üslubun təsiri ilə tənhalığı, yadlaşmanı əsas ideya kimi seçən nəsr nümunələri meydana çıxırdı. Türkiyə romançılığının tanınmış imzalarından olan Mehmet Əroğlunun yaradıcılığında Karl Marksdan gələn və postmodern ədəbiyyatın əsas istinad nöqtələrindən biri olan yadlaşma problemi, fərdin özünü axtarışları olduqca qabarıq şəkildə öz ifadəsini tapmışdır. Karl Marksın kapitalist münasibətlərindəki rəqabətin insanlar arasında yadlaşmaya səbəb olacağı tezisi sonralar modernist və postmodernist ədəbiyyatın əsas özünüifadə elementlərindən birinə çevrildi.

Ötən əsrin ikinci yarısında Türkiyədə baş verən hadisələr, ictimai-siyasi qruplar arasındakı münasibətlərin kəskin şəkil alması, baş verən çevrilişlər cəmiyyətdə fərdin qeyri-müəyyən ictmai-siyasi situasiyada kim olduğunu dərk etmə zərurəti ilə qarşı-qarşıya qalması Mehmet Əroğlunun romanlarında "Mən kiməm kim? - sualının meydana çıxmasını şərtləndirmişdir. Mehmet Əroğlunun dörd romanı, "Tənhalığın ortası", Gecikmiş ölü", "Yarım qalan gəzinti" və "Adını unudan adam" əsərləri işıq üzü görmüşdür. Ciddi paraqdiqma dəyişikliyi keçirən, yeni janr keyfiyyətləri qazanan Türkiyə romanının inkişafında Mehmet Əroğlu və onun bu illərdə

yazmış olduğu dörd romanı ("Tənhalığın ortası", Gec qalmış ölü", "Yarım qalan yürüyüş" və "Adını unudan adam") xüsusi bir yerə malikdir. Bu romanlarda səbəb-nəticə əlaqəsinin qırılması, mərkəzi təhkiyə sisteminin dağılması kimi modern və postmodern elementləri özünü göstərir ki, bu texnikanı Türkiyə nəsrinə gətirənlərdən biri Mehmet Əroğlu oldu. Frans Kafka, Albert Kamyunun əsərlərindəki yadlaşmanı Mehmet Əroğlu Türkiyə nəsrinin və cəmiyyətinin stixiyasına uyğun olaraq uğurla tətbiq etməyi bacarmışdır.[42]

Dissertasiyanın üçüncü fəslində daha çox tarixi roman ənənəsi aparıcılıq təşkil edən türk xalqlarının romanlarından bəhs edilmişdir. *"Türk xalqları romanı: tarixi xronikadan belletristikaya"* adlanan fəsildə uyğur, qazax və özbək romanları tədqiqata cəlb edilir. Tədqiqata cəlb edilən hər üç xalqın 1980-ci illər romançılığında tarixilik, xalqın keçmişində baş vermiş hadisələrin mətndə əks etdirilməsi məsələsinə xüsusi diqqət yetirilmişdir. Uyğur ədəbiyyatında roman tarixi-sənədli prinsip əsasında meydana gəlmiş və XX əsrdə uyğur reallıqlarının, müstəqillik uğrunda mübarizələrinin bədii nəsr vasitəsilə ifadəsi funksiyasını yerinə yetirmişdir. Tədqiqata cəlb edilən bu dövr qazax romanlarında da tarixə müraciət aparıcı istiqamət olmuşdur. 30-cu illərdə baş verən aclıq və onun səbəbləri milli oyanış dövründəki qazax romançılığının əsas istinad etdiyi tarixi hadisələrdən biri olmuşdur. Tarixi roman kimi yaranan (Abdulla Qədiri "Ötən günlər") özbək

---

[42] Fəsildə əldə olunmuş elmi nəticələr haqqında bax: Həsənli, M. 1980-ci illər Türkiyə romanında yadlaşma problemi (Mehmet Əroğlunun romanları əsasında) // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2022. 2, – s.14-19; Həsənli, M. Orxan Pamukun "Qara kitab" romanında dekonstruksiya // Bakı: Filologiya və sənətşünaslıq, – 2022. 2, – s.179-184; Həsənli, M. Türkiyə romanında kafkasayağı tendensiyalar (Bilgə Karasunun "Gecə" romanı əsasında) // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2023. 2, – s.121-126; Həsənli, M. Orxan Pamukun "Bəyaz qala" romanında kimlik problemi // Bakı: BDU Şərqşünaslıq fakültəsinin 100 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları, 14 dekabr 2022-ci il, – s.256-257; Hasanli, M. Orxan Pamukun "Bəyaz qala" romanında Şərq-Qərb dilemması // Toshkent: Turkiy xalqlar adabiyotı: Adabıy aloqalar, adabıy tasır va tarjıma mavzusıdagı xalqaro ılmıy-nazarıy anjuman maqolalar toplamı, – 2022, – s.247-251

romanı XX əsr boyu bu xarakterik xüsusiyyətindən vaz keçməmiş, 1970-ci illərdə müəyyən təzyiqlərin nəticəsində daha da güclənərək 1980-ci illərdə romanın əsas aparıcı istiqaməti olmuşdur.

Fəslin *"Uyğur romanlarında tarixi xronika və etnik-milli təfəkkür"* adlı ilk paraqrafında uyğur romanının inkişaf və dəyişmə dinamikası tədqiqata cəlb edilmişdir. 1980-ci illər uyğur romanı özünün bədii-estetik təkamülü ilə ümumilikdə türk xalqları ədəbiyyatında, romançılığında vacib bir mövqe qazanmışdır. Bu, hər şeydən böyük və qədim türk coğrafiyasının bir parçası olan Şərqi Türküstanın xüsusən XX əsrdəki keşməkeşli taleyi ilə birbaşa bağlıdır. XX əsrin birinci yarısında üç dəfə üsyana qalxan, azadlığını qismən də olsa əldə etməyə nail olan uyğurların 1949-1976-cı illərdə, Mao dövründə yaşadığı ağır repressiv təzyiqin yaratdığı enerji, güc özünü bütün varlığı ilə 80-ci illər romançılığında ifadə etmişdir.

Əbdürrəhim Ötkürün "İz" romanı 1913-cü il Teymur xəlifənin başçılığı ilə Kumul üsyanı, 1930-cu illlərdəki Hocaniyaz Hacının başçılığı ilə xalqın ayağa qalxmasını, Hevir Tömürün "Erkən oyanan adam" romanında Hocaniyaz Hacıya paralel olaraq başlayan Turfan üsyanı, Zordun Sabirin "Ana yurd" romanında 1940-cı illərdə milli dövlət quruculuğu uğrunda üsyanlar bütün tarixi gerçəkliyi ilə təsvir edilmişdir. Adını çəkdiyimiz müəlliflər Mao dövrünün, "Mədəniyyət inqiabı"nın sürgünə məruz qoyduğu, təqib etdiyi uyğurun milli düşüncəli aparıcı ziyalıları idilər. Bu amansız repressiya dayandıqdan sonra onlar xalqın keşməkeşli tarixini yazmağı qarşılarına missiya kimi qoymuş və öz romanları ilə bu taleyüklü məqsədi uğurla həyata keçirmişlər. Məhz buna görə 1980-ci illər uyğur romanında xüsusi mərhələ təşkil edərək, janrın tarixi əsaslarla formalaşması dövrü kimi xarakterizə olunmaqdadır. Fəsildə Əbdürrəhim Ötkür, Zordun Sabir, Turdı Samsak, Hevir Tömür kimi milli yazıçıların romanları tədqiqata cəlb edilmişdir.

Fəslin qazax romanlarından bəhs olunan *"1980-ci illər qazax romanında üslub transformasiyaları"* adlanan ikinci paraqrafda Rollan Seysenbayev, Smaqul Elubay kimi tanınmış qazax yazıçılarının romanlarında 1930-cu illər hadisələrinin əksi məsələləri araşdırmaya cəlb edilir.

1980-ci illər qazax romançılığının tarixində janr transformasiyası baxımından əhəmiyyətli bir dövr kimi xarakterizə olunmaqdadır. Yenidənqurma siyasəti və imperiyanın çöküşünün labüdlüyünün meydana çıxardığı yeni tarixi situasiya ədəbiyyatı, xüsusən də romançılığın yeni dəyişmə mərhələsinə qədəm qoyması üçün ciddi əsaslar yaratmışdır. Smaqul Elubayın "Ağ çadır" romanı bu dövr qazax romançılığındakı forma və məzmun baxımından dəyişməni göstərən əhəmiyyətli nəsr nümunələrindən biridir. Bu romanda 1928-1933-cü illərdə Qazaxıstanda baş verən aclıq və onu yaradan səbəblər bədii planda təsvir edilmişdir. Yazıçı böyük ustalıqla aclığın səbəb və nəticələrini göstərmiş, ideoloji təsisatlarını sərt şəkildə yeritməyə başlayan sovet hökümətinin naqisliklərini əks etdirmişdir. Tədqiqat işində "Ağ çadır" romanı əsasında sovet imperiyasının mövcud idarəetməni dəyişməsinin xaosa və nəticədə aclığa səbəb olması və əvvəlki bəylik sistemi ilə yeni qurulan bolşevik sisteminin qarşıdurmasını və nizamsızlığın, xaosun nizam, kosmos üzərində qələbəsi tədqiq edilmişdir. Romanda Fəxrəddin bəy və onun ağ çadırı kosmosu, Şarip və digərlərinin təlim aldığı bolşeviklərin qızıl çadırı isə xaosun timsalı kimi göstərilmişdir. Smaqul Elubayın "Ağ çadır" romanı 1980-ci illər qazax ədəbiyyatında, ümumilikdə, türk xalqları nəsrində yeni təmayüllərin yaranmasında mühüm rol oynamışdır.

Ümumiyyətlə, türk xalqları romanında məhz 1930-cu illərə baxış müstəvisində ciddi transformasiya prosesləri getmişdir. Türk xalqlarının Orta Asiyanın ucu-bucağı bilinməyən bozqırında yaşayan qazaxların 1930-cu illərdə yaşadıqlarının, başlarına gətirilən faciələrin ciddi roman mətnləri kimi 1980-ci illər ədəbiyyatında yazılmağa başlandı. Smaqul Elubayın "Ağ çadır" romanı qazax həyatında arzuolunmaz dəyişikliyə, aclığa və ölümlərə səbəb olan 1930-cu illərin mahiyyətini açır, səbəblərini bütün tərəfləri ilə göstərir: *"Roman o dövrdə SSRİ rejiminin qazaxlara qarşı apardığı siyasət nəticəsində qazaxların məcburi köçü və bu köç yolunda üzləşdikləri çətinliklərdən bəhs edir"*[43].

Daha çox şifahi bədii düşüncə sistemi ilə bağlı istifadə olunan

[43] Kızıl, M. Smagul Elubay'ın Ak Boz Üy Romanındakı Söz Varlığı / Yüksek Lisans Tezi, Muğla: Muğla Sitki Koçman Üniversitesi / M.Kızıl. – 2019, – 513 s.

xaos və kosmos anlayışlarının mifik yaddaşdan yazılı mətnə proyeksiyası və ya həmin anlayışların mətndə intertekst və alluziya kimi çıxış etməsi çağdaş yaradıcı proses üçün qəbul edilən bir prinsipdir. Müxtəlif mifoloji mətnlərdə dünyanın ilkin xaos başlanğıcından nizama, kosmosa keçməsi və nəticədə yaşadığımız dünyanın yaranması ilə bağlı yaradılış mətnləri vardır. *"Hər hansı mifoloji sistemin özülündə dayanan kosmoqonik miflərdə, yaradılış aktı, dünyanın necə yaranması təsvir olunur. Bütün etnik mədəni sistemlərdə, etnosların yaratdıqları kosmoqonik miflərdə bir ilkin başlanğıc kimi xaos götürülmüşdür. Bir etnos üçün həmin başlanğıc boşluq olmuş, digər biri üçün qaranlıq zülmət, birbaşqa ənənə üçün isə strukturyaradıcı sayılan su olmuşdur. İlkin su xaosla eyniləşdirilir"*[44].

Xaos-kosmos-xaos keçidlərində dünyanın yarandığı ilkin başlanğıca geri dönəcəyi ilə bağlı inam ifadə olunmaqdadır. *"Xaosdan kosmosun yaranmasını ifadə edən mətnlərdə dünyanın sudan, sonsuz qaranlıqdan yaranması və nizamlı şəklə düşməsi daha sonra yenidən bir səbəblə əbədi suya və qaranlığa qərq olacağından bəhs edilir"*[45].

Mifoloji kontekstdə qavranılan xaos-kosmos-xaos üçlü mərhələnin sonuncu iki mərhələsi Smaqul Elubayın "Ağ çadır" romanına proyeksiya edilmişdir. Romanda şərti olaraq xaosdan kosmosa keçid mərhələsi tamamlanmış, mətn kosmos mərhələsi ilə, yəni Fəxrəddinin ağ çadırının aulda qurduğu nizamla başlamışdır. Fəxrəddinin çadırının yıxılması və yerinə bolşeviklərin qızıl çadırının keçməsi ilə xaos başlanır və nəticədə baş verən aclıqda çoxlu sayda insan, o cümlədən Fəxrəddin və onun ailəsi həyatını itirir.

80-ci illərdə yaranan yeni tarixi vəziyyət, imperiyanın çöküşünün labüdlüyü yerli xalqlarda, xüsusən də imperiyanın tərkibinə dövlət subyekti kimi daxil olan respublikalarda

---

[44] Bəydili, C. İstiqbal xalq ədəbiyyatınındır...(seçmə yazılar) / C.Bəydili. Bakı: Elm və təhsil, − 2015, −135

[45] Qarayev, S. Türk mifoloji düşüncəsində dünyanın yaradılışı (monomifoloji baxımdan xaos-kosmos) / S.Qarayev. Motif Akademi Halkbilimi Dergisi, – s.185

canlanmaya səbəb oldu. İmperiya milli fikrin oyanışına amansız reaksiya verdi. Qazaxıstandakı Jeltokson hadisələri, Azərbaycanda 20 Yanvar qırğını və digər bu kimi hadisələr sovetizmin iç üzünü açan, onun xalqların hüquq və azadlıqlarına, öz milli varlıqlarının ifadəsinə qarşı nə qədər amansız olduğunu göstərirdi. Bədii ədəbiyyat bu prosesləri təkcə "güzgü effekti" ilə əks etdirən struktur vahidi kimi deyil, hadisələrin inkişaf istiqamətlərini müəyyən edən, bir çox hallarda generator funksiyasını icra edirdi. Bu dövrdə bir çox türk xalqlarında olduğu kimi, qazax ədəbiyyatında, romançılığında da əsas diqqət, fokus məhz 1930-cu illərə ayrılmışdır. Bu baxımdan Smaqul Elubayın "Ağ çadır" və Rollan Seysenbayevin "Qaçış" əsərləri qazax romançılığının mükəmməl nümunələridir. "Ağ çadır" romanında Qazaxıstanda 1928-1933-cü illərdə baş verən aclıqdan bəhs olunmuş, Smaqul Elubay kimi usta yazarın qələmində gerçək tarix ədəbi bir kimliyə bürünərək ölümsüzləşmişdir.

Daha çox mifoloji kontekstdə qəbul edilən xaos və kosmos anlayışlarının real müstəviyə inteqrasiyasını, yazılı mətnlərdə funksionallıq qazanmasını "Ağ çadır" romanının timsalında aydın şəkildə müşahidə edə bilərik. Yazıçı bozqırdakı bir qazax aulunun, kəndinin timsalında kiçik bir dünyanın modelini yaradıb. Romanda Fəxrəddin bəyin ağ çadırı kosmosun, bolşeviklərin qurduğu qızıl çadır isə xaosun ifadəsinə çevrilərək iki əks qütbü təşkil edir. Yazıçı mövcudluq uğrunda mübarizə kontektsində bu iki fərqli yanaşmanı nizam və anti-nizam kimi iki əks qütblər olaraq verir.

1980-ci illərdə qazax nəsrində tarixin nisbətən daha əvvəlki dönəmlərinə baş vuran, o dövrdəki hadisələrə işıq salan roman nümunələri də yaranmaqda idi. Qazax ədəbiyyatının tanınmış nümayəndələrindən biri Kabdeş Cumadilovun iki hissəli "Sonuncu küçə" (birinci hissə 1974-cü ildə, ikinci hissəsi isə 1981-ci ildə nəşr edilmişdir) və "Təqdir" romanlarında Şərqi Türküstan həyatından bəhs edir. Yaxın coğrafiyada yaşadıqları, Şərqi Türküstanda da müəyyən sayda qazaxların yaşadığını nəzərə alsaq, hər iki xalqın ədəbiyyatında qarşılıqlı şəkildə oxşar taleləri ifadə etmək marağı olmuşdur. Şərqi Türküstanın XX əsin birinci yarısında apardıqları azadlıq mübarizəsi Kabdeş Cumadilovun hər

iki tarixi romanının əsas problematikasını təşkil etməkdədir. İlyas Esenberlinin 1983-cü ildə işıq üzü görmüş “Qızıl Orda” romanında XIII-XV əsrlərdəki tarixi şərait, Qızıl Orda dövlətinin mövcudluğu bədii planda oxuculara təqdim edilmişdir.

1980-ci illərdə yazılmış tarixi romanlarda Qazax-rus münasibətləri, Qazax torpaqlarının rus tabeliyinə keçməsi məsələsi ayrıca romanlarda mövzu olaraq işlənmişdir. Abış Kekilbayevin “Erker” (1981), “Elen-alan” (1984) romanlarında XVIII-XIX əsrdə qazax-rus münasibətlərindən bəhs olunmuşdur. Muxtar Mağaunin iki hissəli “Alsapıran” (1980-1983) romanında isə XVI-XVII əsrlər qazax tarixi ilə bağlı hadisələr öz əksini tapmışdır.

Müasir qazax nəsrinin dünya miqyasında özünü təsdiq edən yazıçıları arasında Rollan Seysenbayev özünəməxsus yer tutmaqdadır. Rollan Seysenbayevin təhkiyəsində qədim qazax ruhu, düşüncəsi, idealları mahiyyəti ifadə edən element, xüsusiyyət kimi çıxış etməkdədir. “Şeytanın taxtı” romanının süjeti öz dövründən götürülsə də, tarixi qat, milli yaddaş məsələsi romanda aparıcılıq təşkil edir. Zaman və məkan baxımından romanda iki xətt mövcuddur. Birincisi, İsgəndərin oğlu Abilay və onun yaşantıları. İkincisi, İsgəndərin qızı Bayan və onun həyat hekayəsi. İlk baxışdan sadə ailə romanı, sovet reallıqları ilə yazılmış ənənəvi qəhrəman tipi, uğursuzluğa düçar olan sevgi münasibətlərini ifadə olunduğu “Şeytanın taxtı” romanı, dövrün siyasi reallığına məhz milli zəmində sərt replikaları, mətnə daxil edilən tarixi süjetlərlə yeni, fərqli və zamanına böyük səs gətirən romana çevrilə bilmişdir. İsgəndərin anası, Makpalın təhkiyəsində təqdim edilən batır Kuşıkbayla bağlı tarixi hadisələr mövcud dövrə alternativ, müqayisə kimi təqdim edilərək mövcud quruluşda taxta Şeytanın oturması ilə bağlı qənaət hasil edilmişdir.

Rollan Seysenbayevin “Şeytanın taxtı” romanı qazax ədəbiyyatında sovet quruluşunu, onun istismarçı, müstəmləkəçi mahiyyətini göstərmək baxımından mühüm dəyərə malikdir. Romanda müəllif hadisələri bilərəkdən həbsxana mühitində təsvir etməklə ruhən, mənəviyyatca azad olan insanın hər hansı çərçivəyə sığa bilməyəcəyini göstərmişdir. Əksinə, quruluşu şeytanın taxtına bənzətməklə istismarçılığa qarşı öz münasibətini ifadə etmişdir.

Rollan Seysenbayevin sovet quruculuğu illərindən, basmaçı hərəkatı dövründən bəhs edən "Qaçış" romanı üslubu, texnikası baxımından modern dünya nəsrinin parlaq nümunələrindən biridir. Romanın dünyanın on yeddi ölkəsində, doqquz dilində və on yeddi milyon ədəddən artıq nəşr edilməsi əsərin dünya miqyasında qazandığı mövqeyin, sevginin əyani göstəricisidir.

"Qaçış" romanında ənənəvi kompozisiya quruluşundan, tarixi faktlara, geniş bədii lövhələrə fokuslanmaqdan uzaq duraraq, əsas olaraq bir insanın, romanın qəhrəmanı Xudaverdinin (Kudaybergen) düşüncələri, hissləri və yaşantıları üzərində dayanmışdır. Roman yaşlı bir "qeyri-müəyyənlik içində çaşqın dolaşan" qocanın dəniz qırağında, qayanın üzərində oturub həyatındakı böyük səhvin peşmanlığını çəkməsiylə başlayır. Öz keçmişindən durmadan qaçmağa çalışan Xudaverdi qocalığında, ölümün bir-iki addımlıq astanasında bunun qeyri-mümkün olduğunu dərk edir.

Romanda iki zaman və məkan qatı var. Birincisi, geriyə dönüşün mümkünsüzlüyünü, səhvlərin düzəlməyəcəyini anlayan qocanın vətəndən çox-çox uzaqlarda, başqa ad, kimlik altında ömrünün son çağlarıdır. İkincisi isə, Xudaverdinin gənclik dövrü, bolşevik zabitini öldürərək basmaçılara qoşulması ilə başlayan və qaçmağa məcbur qaldığı vaxta qədər davam edən Qazaxıstan dövrüdür. Romanda yazıçı daxili monoloqlardan, şüur axını texnikasından geniş istifadə etmişdir. "Qaçış" əsəri modernist Qərb romanları kimi fərdin daxili dünyasını bütün cəhətləri ilə göstərməyə cəhd edən, Xudaverdinin daxilində yaşadığı təlatümlərin romanıdır.

Rollan Seysenbayevin 80-ci illərdə qələmə aldığı "Şeytanın taxtı" və "Qaçış" romanları bu zaman kəsimində qazax nəsrinin yeni mərhələyə yüksəldiyini göstərən ciddi ədəbiyyat faktlarıdır. Hər iki romandakı məzmun mündəricəsi rejimə qarşı sərt etirazın bədii formada ifadəsidir. Hər iki romanın paralelliyi həm də səbəblərin ötəriliyindədi. Fokus insanadır, onun daxili aləminədir və yazıçının qənaəti budur ki, heç bir tarixi hadisə insandan üstün deyildir. Xudaverdi ömrünün sonlarına yaxın, dəniz sahilində keçmişi xatırlaması ilə E.Hemenqueyin "Qoca və dəniz" əsərində

dənizçi Santiyaqonun düşüncələri arasında müəyyən bağlar qurmaq mümkündür. "Qaçış" bu baxımdan dünya ədəbiyyatının aparıcı tendensiyalarını, yazı maneralarını süzgəcindən keçirən maraqlı roman nümunəsidir.

1980-ci illər qazax romanı digər zaman kəsimlərindən fərqlənən, özünəməxsus keyfiyyətləri ilə seçilən dövr kimi xarakterizə oluna bilər. Təbii ki, bu ilk növbədə sovet imperiyasında baş verən ümumi proseslə birbaşa bağlı idi. Yenidənqurma dövrü kimi adlanan bu zaman kəsimində qazax romanında aparıcı xətt kimi tarixilik yer tutmaqdadır. Uzun illər boyu qadağan edilən, milli yaddaşını ifadə edən nəsr nümunələri bu dövrdə aparıcılıq qazanmağa başladı. Rollan Seysenbayevin "Qaçış", "İblisin taxtı", Smagul Elubayın "Ağ çadır" romanları isə məhz sovet dövründə baş verən hadisələrə həsr olunmaqla mahiyyətindəki tənqidi məzmunu ilə diqqəti cəlb etmişdir.

Dissertasiyanın üçüncü fəslinin *"Özbək tarixi romançılığında milli ideya*" adlanan paraqrafında Abdulla Qədiridən başlayaraq, özbək tarixi romanın inkişaf xüsusiyyətləri, 1980-ci illərdə yaranan romanların özünəməxsus keyfiyyətləri araşdırılır. Bu baxımdan, Pirimkul Kadirovun "Ulduzlu gecələr" əsəri böyük təzyiqlər altında özünifadə etmək məcburiyyətində qalan özbək tarixi romanının ən parlaq nümunələrindən biri hesab etmək mümkündür. İxtisasca tarixçi olan Pirimkul Kadirov Babur haqqında yazdığı bu tarixi romanında o dövrdəki tarixi mənbələrdən, Baburun özünün müəllifi olduğu "Baburnamə", qızı Gülbədənin yazdığı "Hümayunnamə", Məhəmməd Salihin "Şeybaninamə" və digər məxəzlərdən yaradıcı şəkildə istifadə etmişdir: *"Zahirəddin Məhəmməd Baburun təxminən qırx illik həyatı boyunca ailəsi, şairliyi, daxili dünyasındakı yaşadıqları, hərbi uğuru və uğursuzluqları, qurduğu dövlət və padşahlığı kimi hadisələrdən bəhs edilir"*[46].

"Ulduzlu gecələr" romanı Böyük Moğol İmperatorluğunun qurucusu Zahirəddin Məhəmməd Babur haqqında tarixi mənbələr əsasında yazılmış əsər olmaqla yanaşı, həmin dövrün tarixi

---

[46] Giray, E. Pirimkul Kadirov'un Romanlari Üzerine Bir İnceleme / E.Giray. Doktora Tezi. Ankara, – 2016, – s.210

hadisələrinə, dörd böyük türk dövləti olan Moğol, Səfəvi və Şeybani və qismən də Osmanlı dövlətləri arasındakı münasibətlərə işıq salan mühüm bir salnamə xarakterindədir. Müəllif tarixi faktlara çox istinad etdiyindən romandakı təxəyyül payı tarixi-xronikaya nisbətən azdır. Bu da 1970-ci illərdə Özbəkistanda tarixi romançılığa, ümumilikdə milli kimliyə qarşı aparılan repressiv siyasətə qarşı Pirimkul Kadirovun dirənişini ifadə etməkdədir.

Pirimkul Kadirovun 1988-ci ildə nəşr olunan "Humayun və Əkbər" romanında Baburlar mövzusunu davam etdirmişdir. Romanda Məhəmməd Baburun oğlu Humayun və onun oğlu Əkbərin həyatı, taxt-tac uğrunda mübarizələri öz əksini tapmışdır.

Pirimkul Kadirovla eyni tarixi dövrdə yazmış olduğu tarixi romanlarla özbək ədəbiyyatını zənginləşdirən müəlliflər arasında Adil Yaqubov xüsusi yer tutmaqdadır. Onun "Uluqbəy xəzinəsi" və "Köhnə dünya" romanları bu dövr özbək ədəbiyyatının mühüm əsərləri sırasındadır. "Köhnə dünya" romanı özbək tarixi romançılığının 1980-ci illərin ictimai-siyasi hadisələrinin fonunda yazılan, dövrdə baş verənlərə də eyham vurulan maraqlı nəsr nümunələrindən biridir.

XX əsrin 20-ci illərində, özbək ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Qədirinin "Ötən günlər" və "Mehrab əqrəbi" tarixi romanları ilə başlayan özbək romanı imperiyanın diqtə etdiyi sosialist realizmi prinsiplərinin təzyiqi altında o qədər də asan olmayan bir yol keçərək 80-ci illərə, müstəqillik öncəsinə qədəm qoymuşdur. Bütün bu çətinliklərə, keşməkeşlərə rəğmən, özbək romanı öz milli mahiyyətini nəinki itirməmiş, ən ağır sınaqlar qarşısında milli tarixini təbliğ etməkdən çəkinməmişdir. Repressiv təzyiqlərin ardınca baş verən dünya müharibəsi illərində özbək ədəbiyyatında Əbdülhəmid Çolpanın "Gecə və gündüz" və Musa Aybəkin "Qutlu xan", "Nəvai" kimi tarixi romanlarının meydana çıxması bu faktı bir daha təsdiqləyir. Bunun nəticəsidir ki, digər xalqlarda nisbi yumşalma getdiyi 60-70-ci illərdə Özbəkistanda tarixi roman yazılmasına sərt qadağalar tətbiq edilməyə başlanmışdır. Buna baxmayaraq, həmin təzyiqlər daha böyük ədəbiyyatın yaranmasına təkan vermişdir. Yeni mərhələdə özbək tarixi romançılığının inkişafında Pirimkul Kadirov və Adil

Yaqubov misilsiz xidmətlər göstərmişlər. Hər iki müəllifin 1970-80-ci illərdə yazmış olduğu tarixi romanları ilə özbək romançılığında məzmun baxımından yeni təkamül proseslərinin başlanması zərurəti meydana çıxmışdır. Pirimkul Kadirovun Baburlar nəslindən bəhs edən "Ulduzlu gecələr" və "Humayun və Əkbər" romanları, Adil Yaqubovun "Uluqbəy xəzinəsi" və Qəznəvilər dövründən, Əli Birunidən bəhs edən "Köhnə dünya" romanları özbək nəsri tarixində xüsusi yeri olan, milli şüurun oyanmasında müstəsna xidmətlər göstərmiş nəsr nümunələridir. Özbək romançılığı tarixi ənənə üzərində yaranaraq inkişaf etmiş, 1980-ci illərin milli oyanışında da tarixi romanlarla bu prosesə öz töhfəsini vermişdir.

Fəsildə əldə olunmuş mühüm elmi nəticələr aşağıdakı nəşrlərdə öz əksini tapmışdır.[47]

Dissertasiya işinin sonuncu, dördüncü fəslində daha çox tarixi-sosial münədricəsi ilə seçilən türk xalqlarının romanları tədqiqata cəlb edilir. *"1980-ci illər türk xalqları romanında ictimai və milli-mənəvi motivlər"* adlanan fəsildə türkmən, başqırd və tatar romanlarında tarixi, milli və sosial motivlər araşdırmaya cəlb edilir.

Dördüncü *fəslin "Türkmən romanında sosial motiv və tarixi qəhrəman məsələsi"* adlı ilk paraqrafında türkmən romanında tarixi qəhrəmanların obraz kimi funksionallıq qazanması məsələsi araşdırılmışdır. Dövlətməmməd Azadi, Məhtimqulu Fəraqi kimi kimi görkəmli türkmən şəxsiyyətlərinin türkmən milli varlığının ifadəsi kimi bədii mətndə işlənmə dərəcəsi tədqiq edilmişdir. 1980-

[47] Həsənli, M. Abdurrahim Ötkürün "İz" romanında tarixi gerçəkliyin bədii ifadəsi // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2021. 2, – s.34-39; Həsənli, M. Smaqul Elubayın "Ağ çadır" romanında kosmos-xaos əvəzlənməsi // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2023. 1, – s.18-24; Hasanli, M. Style mosaıc of the modern Kazakh novel // Universidad Y Sociedad | Have Scientific of the University of Cienfuegos, 2024. 16(3), – s.121-126; Hasanlı, M. Pirimkul Kadırov ve Adil Yagubov'un tarihi romanlarında Özbek Milli Düşüncesinin Yansıması // Toshkent Davlat Pedagogıka Unıversıtetı Ilmıy Axborotları Ilmıy-Nazarıy Jurnalı, – 2024, 2. – s.89-96; Həsənli, M. 1980-ci illər Uyğur romanında milli xarakter problemi // Bakı: BSU Azərbaycanşünaslığın aktual problemlərinə həsr olunmuş Beynəlxalq elmi-praktik konfransın materialları, 4-5 may 2022-ci il, – s.206-209

ci illər türkmən romanında az da olsa sosialist rejiminin tənqidinə, ideologiyadan təmizlənmiş insan münasibətlərinin təsvirinə həsr edilmiş romanlar meydana gəlməyə başlayır. Yaranan yeni ədəbiyyatın ən görkəmli nümyanədəsi, tanınmış türkmən yazıçısı Berdinəzər Xudaynəzərovun 1970-ci ildə qələmə aldığı "Qumlular" romanı sovet dövrü türkmən romançılığında xüsusi çəkiyə malikdir. "Qumlular" sovet dövrü türkmən nəsrində milli kimlik uğrunda mübarizəni, sovetlər sisteminin repressiyasını, xalqın dilini, yaddaşını məhv etmək naminə yürüdülən siyasəti və nəhayət İkinci Dünya müharibəsi ilə bağlı gerçəklikləri təsvir edir. B.Xudaynəzərovun "Qumlular" əsəri ideya-məzmun baxımından böyük qırğız yazıçısı Çingiz Aytmatov nəsri ilə xeyli dərəcədə səsləşir. Romandakı Ankar ağa obrazı ilə Ç.Aytmatovun yaratdığı Mömin baba ("Ağ gəmi") və Yedigey ("Gün var əsrə bərbər") arasında xalq müdirlikliyini özündə ifadə etmək baxımından nəzərə çarpacaq paralellər aparmaq mümkündür. Qeyd edək ki, Ankar əsərdə arxetipləşərək müdrik qoca funksiyasını yerinə yetirir. Onun başlıca istinad nöqtəsində görkəmli türkmən şairi Məhtimqulu Fəraqinin mükəmməl obrazı dayanır. "Qumlular" romanında toxunulan əsas mövzulardan biri İkinci Dünya müharibəsi ilə bağlıdır: *"Berdinəzər Xudaynəzərov "Qumlular" romanı Qaraqum çölündə yaşayan türkmənlərin İkinci Dünya müharibəsi zamanı arxa cəbhədə yaşadığı ağrıları, savaşın övladsız qoyduğu anaların və cəbhədə ərini itirən dul qadınların qarşı-qarşıya qaldığı sıxıntıları anlatmaqdadır. "Qumlular" ifadəsiylə yazıçı Qaraqum çölündə yaşayan türkmənləri nəzərdə tutmaqdadır"*[48].

1980-ci illər türkmən romanında ənənəvi sosialist realizmi ciddi çərçivələrindən kənara çıxan, həmin dövrdə baş verən hadisələrə tənqidi münasibət bəsləyən müəlliflərdən biri Oraz Yağmurun "Duman çəkiləndə" (1989) romanı sovet idarəetməsindəki çatışmazlıqları satirik üslubda təsvir edən nəsr nümunəsidir. Romanda sovet dövründə, xüsusilə 1960-cı illərdən sonra aktuallaşan mənfi xarakterli idarəçilərə qarşı mərkəzdən təhsil alıb gəlmiş yeni düşüncəli gənclərin mübarizəsi aparıcı süjet xətti

[48] İdem, B. Berdinazar Hudaynazarov'un Romanlarinda Mahtumkulu'nun Ve Şiirlerinin Yeri / B.İdem. Türk Dünyası 41. Sayı, – s.39

kimi götürülmüşdür. Adını çəkdiyimiz romanda Moskvada tibb təhsilini başa vurub Pendi bölgəsinə gələn Qasımla, bölgənin partiya katibi Həkim arasındakı ziddiyyət romanın əsas süjet xəttini təşkil etməkdədir. Həkimin timsalında həmin dövrdə bölgədə qanunsuz əməllər törədənlər gənc həkim Qasım Quliyev tərəfindən ifşa edilir və bu ifşada yenə də mərkəz, daha doğrusu, Moskva mühüm rol oynayır.

1980-ci illərdə türkmən nəsrində müstəqillik işartılarını diqqət mərkəzinə gətirən romanlar da görünməyə başlayır. Bu amil daha çox tarixi kontekstdə özünü büruzə verir. Milli yazıçılar bu ərəfədə tarixi proseslər fonunda türkmənlərin xalq kimi varlığı və müstəqillik düşüncəsini formalaşdırmağa çalışırlar. Tirkiş Cumagəldiyevin "Qara İldırım" əsəri bu baxımdan daha səciyyəvidir. Roman folklor motivləri, dastan ənənələrinə söykənilərək qələmə alınmış və maraqlıdır ki, müəllifin yaratdığı qəhrəmanlar əsərdə irreal dastan qəhrəmanları ilə iç-içə təqdim olunmuşdur. Romanın özünün təhkiyəsi də dastan ruhundadır. Əsərin uğurlu təqdimatında Koroğlu motivləri roman mətninin infrastrukturuna uğurla oturdulmuşdur. Əsərdə türkmən tayfalarının Xivə xanlığı dövründə Nadir şahın rəhbərlik etdiyi Əfşarlar dövləti ilə mövcud olmuş münasibətlər təsvir edilir. Eyni zamanda, Nadir şah tərəfindən türkmən tayfalarının nəzarətə götürülməsi romanın əsas ideyasını təşkil edir.

1980-ci illər türkmən romanında müraciət olunan tarixi şəxsiyyətlərdən biri də XIX əsrdə türkmən tayfalarının birliyi uğrunda mübarizə aparmış Qovşud xandır. Bu baxımdan 1980-ci illərdə türkmən bədii düşüncəsində Qovşud xan dövlətin xalqı yenidən müstəqilliyə çağırışının simvoluna çevrilir. Atacan Tağanın "Saraq qalası" və Yazmurad Məmmədiyevin "Papaq" romanlarında Qovşud xan obrazı, onun Xivə xanlığı və Əfşarlarla türkmənlərin birliyi ilə bağlı apardığı mübarizə bədii planda təsvir edilir. Bəhs etdiyimiz hər iki romanda Qovşud xanın qəhrəmanlığı, onun türkmən tayfalarını birləşdirmələri uğrunda mübarizəsini əks etdirir.

Məhtimqulu Fəraqinin bioqrafiyasını əks etdirən türkmən romanlarından biri Qılıç Quliyevin "Məhtimqulu" (1989) romanı olmuşdur. Romanda Məhtimqulunun gənclik dövründən başlayaraq

qocalığına qədərki mərhələ, geniş bir həyat dövrü bütün incəlikləri ilə əks etdirilmişdir: *“Türkmən yazıçısı və dramaturqu Q.Quliyev “Məhtimqulu” romanının köməyi ilə müasir oxucunu XVIII əsrlə tanış edir. Müəllif bu əsərdə Məhtimqulunun çəkdiyi çətinliklərlə yanaşı, həm də türkmən xalqının sosial müstəqillik savaşından da bəhs etmişdir”*[49]. Berdinəzər Xudaynəzərovun “Qumlular” romanı ilə başlayan yeniləşmə, sosialist realizminin sərt qəlibinin dağılması prosesləri Oraz Yağmurun “Duman çəkiləndə”, Tirkiş Cumagəldiyevin “Qara İldırım”, Qılıç Quliyevin “Məhtimqulu” romanları ilə davam etmiş və nəticədə Türkmənistanın yenidən müstəqilliyi, azadlığı ideyası yaranıb inkişaf etmişdir.

Ümumilikdə, 1980-ci illər türkmən romançılığı qazandığı milli məzmun keyfiyyəti ilə seçilmiş və bu ənənə 1990-cı illərdə, müstəqilliyi qazandıqdan sonra yeni istiqamətlərdə inkişaf etmişdir. Tarixi şəxsiyyətlərin obrazlarının yaradılması, onların şeirlərinin, şəxsi həyat təcrübələrinin roman mətninə gətirilməsi prosesi sonrakı illərdə də türkmən romançılığında öz funksionallığını qoruyub saxlamışdır.

Fəslin *“Başqırd romanın tarixi və sosial məndəricəsində estetik gedişlər paradiqması”* adlanan ikinci fəslində başqırd romanındakı bədii-estetik təkamül tədqiqata cəlb edilmişdir. Başqırd romanında milli özünüdərk prosesləri bədii ədəbiyyatda tarixi romanların sayəsində güclənir. Bu prosesin əsas başlanğıc nöqtəsini məhz 1980-ci illər təşkil etməkdə idi. Bu illərdən başlayaraq başqırd tarixi romanı xalqın minilliklər boyu yaşatdığı şifahi xalq ədəbiyyatı nümunələrindən, xüsusilə dastan, əfsanə, rəvayət və digər folklor nümunələrindən yaradıcılıqla bəhrələnir və bu əsərlər başqırd ədəbiyyatının əsas simasını müəyyən etməyə başlayır. *“Bu romanlar xalqın yaddaşında dərin iz qoymuş epoxaların əsas konfliktləri üzərində qurulub. Təkcə faktiki, tarixi və arxiv materiallarının deyil, həm də xalqın folklorunun, adət-ənənələrinin, rituallarının, müəyyən bir dövrün dilinin, etnoqrafiyasının, adları çəkilən dövrün coğrafi və etnik xüsusiyyətlərinin öyrənilməsi bu tarixi romanların xarakterik xüsusiyyətləridir. Bu əsərlər xronoloji olaraq təkcə yaxın dövrlərin*

---

[49] Tatliyeva, L. Şair Mahtum Kulu Hakkinda Kitaplar / L.Tatliyeva. Bilig-6/Yaz – 1997, – s.258

*deyil, həm də daha çağların hadisələrini əhatə edir"*[50].

Kirey Merqenin "Qızıl quşun qanadları" (1958-1983), Əhyar Həkimovun "Dəri mücrü" (1982), "Dombranın göz yaşları" (1984), Qali İbrahimovun "Kinzə", Yanıbay Həmmətovun "Şimal amurları" tarixi romanları 1980-ci illər başqırd nəsrinin məzmunca inkişafının yeni mərhələsini göstərən nümunələrdəndir.

1980-ci illər başqırd ədəbiyyatının əsas simalarından biri olan Denis Bülekov "Yad", "Ömür təkdir" romanları ilə bu dövr başqırd sosial romanının əsas təmsilçisi statusunu qazanmışdır. Başqırd ictimai-sosial həyatında fərqlənən, müxtəlif vaxtlarda dövlət vəzifələri daşıyan Denis Bülekovun yaradıcılığında, xüsusilə də, 80-ci illər kontekstində təhlilə cəlb etdiyimiz "Yad", "Ömür təkdir" romanlarında müəllifin daşıdığı statuslara uyğun olaraq tutduğu mövqeyin izlərini görə bilərik. Müəllifin "Yad" romanındakı yad anlayışı Alber Kamyünün romanındakı yadlaşma anlayışı ilə deyil, müstəqim mənada yadlığı ifadə edən məfhumdur. Yəni romanda XX əsrdəki insana biganə münasibət ifadə edən yadlıq anlayışı motiv kimi istifadə edilməmişdir.

Tədqiqat işində Denis Bülekovun "Yad" romanından XX əsrin ikinci yarısında başqırd həyatını, onun milli-etnoqrafik xüsusiyyətlərini göstərən uğurlu roman nümunəsi kimi bəhs olunmuşdur.

Denis Bülekovun bu zaman kəsimində yazdığı ikinci romanı "Ömür təkdir" (əsər 1992-ci ildə nəşr olunsa da, romanda 1990-cı ildə tamamlandığı qeyd olunmuşdur) romanı avtobioqrafik səciyyə daşıyaraq, daha çox müəllifin şəxsi düşüncələrini, yaşantılarını və zamana baxışını ifadə edən nəsr nümunəsidir. Denis Bülekovun da deputat seçildiyini nəzərə alsaq, romanın qəhrəmanı Arınbasarovun, müəyyən mənada müəllifin prototipi olması qənaətinə gəlmək mümkündür. "Ömür təkdir" romanı bu illər sovet imperiyasında baş verən prosesləri, çaşqınlığı, seçim qarşısında qalan cəmiyyəti təsvir edən nəsr nümunəsidir. İmperiyanın dağılma və çökmə prosesində yaranan çaşqınlığı təkcə başqırd

---

[50] Алибаев, З.А. Горизонты Башкирского Исторического Романа. Филология И Искусствоведение / З.А.Алибаев. Вестник Башкирского Университета. – 2011. т.16, №3(I), – с.1110

ədəbiyyatında deyil, ümumilikdə türk xalqları nəsrində də izləmək mümkündür. Ümumilikdə, başqırd romanı sosial mündəricə və tarixə müraciət baxımından 1980-ci illərdə özünün yeni inkişaf stixiyasını müəyyən etmiş və tədqiqat işində bu məsələlər araşdırılmışdır.

Dissertasiyanın *“1980-ci illər tatar romanlarında repressiya və mili özünüdərk”* adlı sonuncu paraqrafda tatar romanında baş verən forma və məzmun dəyişmələri tədqiqata cəlb edilmişdir. Tatar ədəbiyyatında yeni nəsrin, neorealist romanın əksi Rəfkət Kəriminin yaradıcılığında 80-ci illərin sonundan etibarən müşahidə edilməyə başlayır. Müəllifin “Qarğışlı dövrlər” (1989) romanı repressiya mövzusuna həsr olunmuşdur. Müəllif bir ailənin timsalında repressiyanın gətirdiyi dəhşətləri təsvir etmişdir. Motaqir və Musamir ikinci övladlarının doğuluşunu gözlədikləri bir vaxtda onların qapıları da döyülür. Daha sonra on illik sürgün və həbs dövrü başlayır. Müəllif sadə insanların timsalında dövlət tərəfindən törədilən dəhşətin miqyasını təsvir edir.

Ümumilikdə tatar nəsrində 80-ci illərin sonlarına doğru başlayan transformasiyanın mahiyyətini ifadə edən əsas amil milli özünüdərklə bağlı idi. Tatar xalqının milli varlığı, tarixi keçmişi və Ayaz İsxakinin əsrin əvvəllərində yazdığı kimi varolma mücadiləsi bu dövr romanının əsas istiqamətlərindən birini təşkil etmişdir. 1980-ci illərdə tatar nəsrində ortaq türk tarixi keçmişini ifadə edən roman nümunələri meydana çıxmağa başladı. Qeyd olunan istiqamətin tatar nəsrində əsasını tanınmış tatar nasiri Nurixan Fəttah qoymuşdur. “İdil çayı axır” (1969) və “Fit çalan oxlar” (“Çavuş oxları”) (1982) romanlarında müəllif türk tarixinin qədim səhifələrinə müraciət etmişdir. Roman yaradıcılığından öncə tarixi-linqvistik araşdırmalar aparan Nurixan Fəttah tatar dilini, tarixini və etnoqrafiyasını ümumtürk kontekstində götürərək tədqiqata cəlb etmişdir. Apardığı linqvistik tədqiqatlarının nəticəsində “Uzaq keçmişin əks-sədası”, “Şəcərə” əsərlərini meydana qoyan Nurixan Fəttahı Çin mənbələrində bəhs olunan Hun imperiyası, onun qüdrətli hökmdarları Teoman və Mete xaqan haqqında faktlar maraqlandırmışdır. “Fit çalan oxlar” (“Çavuş oxları”) romanı bu mövzuda aparılan çoxsaylı tədqiqatların (L.Qumilyov, N.Buçirin)

və müəllifin özünün düşüncələrinin nəticəsində ərsəyə gəlmişdir.

Nurixan Fəttahın romanlarından sonra Musaqit Həbibullinin "Kubrat xan" romanı tatar tarixi romançılığının növbəti uğurlu səhifəsini təşkil etməkdədir. Romanda VII əsrdə Bulqar-Xəzər münasibətlərindən bəhs olunur.

80-ci illər sovet işğalına məruz qalmış türk xalqlarının romançılığında repressiya mövzusu aktuallıq qazanmağa başlayır. Repressiya illərində aparılan amansız ölüm siyasəti, yüz minlərlə insanın günahsız yerə ölümə, sürgünə göndərilməsi bu ağrını yaşamağa məhkum edilmiş hər bir xalqın şüurunda izah olunmayan bir enerji yaratmışdı. Bu enerjinin partlayışı, özünüifadəsi böyük qırğız yazıçısı Çingiz Aytmatovun qələmə aldığı "Gün var əsrə bərabər" (1980) romanı ilə başladı. Atasını bu amansız repressiyada itirən və uşaqlığını, gəncliyini ata axtarışları ilə keçirən yazıçı ilk fürsətdə məhz həmin ağrıya, onu narahat edən mövzuda əsər yazdı. Aytmatovun qələmə aldığı Abutalıb Kutubbayevlə bağlı hadisə türk xalqları romançılığında repressiya mövzusunda yazılmış ilk əsər kimi böyük dəyərə malikdir. Bu roman digər xalqlarda repressiya mövzusunda yazılacaq əsərlər üçün bir cığır funksiyasını icra etmişdir.

Böyük maarifçi hərəkatın nəticəsində yaranan Kazan məktəbi, intellektual inkişafına görə fərqlənən tatarlar repressiyanı ən ağır, fəci şəkildə yaşayan xalqlardan biri olmuşdur. Məqsəd təkcə sovet rejiminin adlandırdığı kimi keçmişlə bağlı milli-ideoloji yönümlü olmayıb, xalqın intellektual kəsiminə qarşı yönələrək onların varlığını yox etmək, silmək idi: *"30-cu illərin anoloqu olmayan repressiya kabusu təkcə istedadlı, vətənpərvər adamları tragik şəkildə həyatdan, sevdiyi sənətindən ayırmadı (bu maddi, statistiklərin hesablayacağı itkidir), həm də on minlərlə oxuma və yazma savadı olmayan adamları belə ağuşuna alaraq xalqın şüurunu dəyişdi, onu tərəqqidən saxladı, mənəviyyata, tarixi-etnik düşüncəyə ağır zərbə vurdu (bunu isə artıq statistiklər heç cür hesablaya bilməz!). Neçə-neçə bədii düşüncə, mənəvi-əxlaqi dəyərlər məhv oldu, nəticədə ən böyük ziyanı xalq çəkdi. O xalq ki, onun adı ilə bu təmizlənmə "alqışlandı", "satqınların", "xalq düşmənləri"nin mühakiməsi "tələb edildi". Bunu isə hər*

*hansı bir fərdin kimisə satmasının, yaxud danos yazmasının üzərinə qoymaq olmaz. Bunu bütövlükdə sistemin, hakimiyyətin, avtoritar rejimin adına yazmaq lazım gəlir”*[51].

Görkəmli tatar yazıçısı İbrahim Salahovun qələmə aldığı “Kolıma məhkumları” romanı təkcə tatar ədəbiyyatında deyil, geniş mənada bu faciəni yaşamış türk xalqlarında repressiya mövzusunda yazılmış böyük dəyərə malik nəsr nümunəsidir. Müəllifin “Bir tatar ziyalısının sürgün xatirələri” adlandırdığı romanın baş qəhrəmanı, təhkiyəçisi müəllifin özüdür. İbrahim Salahov öz başına gələn dəhşətləri, özü ilə birlikdə tatar ziyalılarının, fikir adamlarının repressiya dövründə yaşadıqlarını avtobioqrafik səpkidə qələmə almışdır. İbrahim Salahov bir çoxlarının öldürüldüyü, digərlərinin həbs edilərək sürgündə ölümə məhkum edildiyi bu dəhşətli müddətdən sağ çıxmağı bacarmış və həbsdən qayıtdıqdan sonra öz xatirələrini yazmağa başlamışdır. 1956-1981-ci illərdə yazılmış olan “Kolıma məhkumları” romanı yalnız sovet imperiyasının dağılmasına az qalmış işıq üzü görmüşdür.

80-ci illərdə tatar nəsri ciddi paradiqma dəyişikliyi keçirmiş, qısa zaman kəsiyinin olmasına baxmayaraq onilliyin birinci yarısı ilə ikinci yarısında yaranan mətnlər həm məzmun, həm də forma baxımından bir-birindən fərqlənmişdir. Qeyd etdiyimiz kimi, tatar ədəbiyyatında uzun illər sosialist realizmi prinsipləri hakim olmuş, Xruşşov istiləşməsinin təsirləri yalnız 80-ci illərdə ədəbiyyatda öz əksini tapmağa başlamışdır.

Tədqiqat işinin sonuncu fəslində əldə edilən mühüm nəticələr aşağıdakı nəşrlərdə əksini tapmışdır.[52]

---

[51] Əhmədov, B. Ədəbiyyat və repressiya; xarakteri, genezisi və yanaşma meyilləri //Azərbaycan: jurnalı. –2012. – №3. – s.177

[52] Həsənli, M. 1980-ci illər tatar romanlarında milli yaddaş // Bakı: Filologiya və sənətşünaslıq, – 2024. 1, – s.109-116; Hasanlı, M. Türkmən Yazıçısı Qılıç Quliyevin “Məhtimqulu” Romanında Məhtimqulu Fəraqinin Obrazı // Folklor Akademi Dergisi, – 2024, 7, – s.24-29; Həsənli, M. Başqırd yazar Denis Bülekovun romanları estetik dəyişmə paradiqmasında // Bakı: Filologiya məsələləri, – 2024. 4, – s.268-273; Həsənli, M. 1980-ci illər türkmən romanında sosial və tarixi motivlər // Bakı Qızlar Universiteti Elmi əsərlər, – 2024, cild 20 №3,(59), – s.175-181

Dissertasiya işinin **Nəticə** hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə olunan elmi-nəzəri qənaətlər aşağıdakı qaydada ümumiləşdirilmişdir:

- Dünya ədəbiyyatının əsas roman tədqiqatçılarının da qəbul etdiyi kimi, Migel de Servantesin "Don Kixot" (1615) əsəri ilə başlanan roman janrı XIX əsrdən etibarən ədəbiyyatın əsas janrına çevrilməyə başladı. XX əsr boyu roman təkcə ədəbiyyatın deyil, ümumilikdə humanitar düşüncənin əsas özünüifadə strukturlarından biri olmuşdur. Tədqiqat işində aparıcı türk xalqlarının roman ənənəsinin dünya romanı ilə müqayisədə yaranması və inkişaf istiqamətləri öyrənilmiş və bu qənaətə gəlinmişdir ki, türk xalqlarında dünya ədəbiyyatşünaslığı standartında roman ilk olaraq maarifçilik hərəkatının sistemli formalaşdığı xalqlarda (Türkiyə, Azərbaycan və tatar) XIX əsrin ikinci yarısında yaranmışdır. Digər türk xalqlarında roman yaradıcılığı əsasən SSRİ-nin qurulmasından sonra yaranıb inkişaf etmişdir.

- Dövlətçilik ənənəsi baxımından türk xalqları arasında seçilən Türkiyə ədəbiyyatında roman janrı, xüsusilə, Cümhuriyyətin yaranması ilə sistemli şəkildə inkişaf etmişdir. 1960-cı ildən baş verən çevrilişlər humanitar düşüncəyə təsir etmiş və nəticədə ədəbiyyatın aparıcı janrı olan romanda transformasiya prosesləri başlamışdır. Tədqiqat işində Türkiyə romanında kafkasayağı üslubun təzahür formaları, magik realist romanın yaranması və dekadans əhvalın əksi məsələləri öyrənilmişdir. 1970-1980-ci illərdən modernist keyfiyyətlərlə zənginləşən (Əhməd Həmdi Tanpınar, Oğuz Atay, Fərid Edgü, Yusif Atılqan) Türkiyə romanını 80-ci illərdə (Orxan Pamuk) postmodern səciyyə qazanmışdır.

- Tədqiqat işində müəyyən edilmişdir ki, Əhməd Həmdi Tanpınarla həm elmi-nəzəri, həm də bədii baxımından modernləşməyə başlayan Türkiyə romanında 1970-ci illərin sonu - 1980-ci illərdə ciddi transformasiya prosesləri getmişdir. Ceyms Coysun "Uliss" romanı ilə eyni, şüur axını texnikası ilə qələmə alınan Oğuz Atayın "Tutunamayanlar" romanı, Yusif Atılqanın "Anayurd hoteli", eləcə də Fərid Edgünün yaradıcılığı ilə modern

Türkiyə romanının 1970-ci illərdə möhkəm əsasları yaranmış və bu əsaslar 1980-ci illər ciddi dəyişmələrin bünövrəsini təşkil etmişdir. Tədqiqat işində Lətifə Təkinin “Sevgili arsız ölüm” romanı Qabriel Qarsiya Markezin “Yüz ilin tənhalığı” romanı ilə müqayisəli şəkildə araşdırılaraq Türkiyə nəsrində ilk magik realist əsərin meydana gəlməsindən bəhs edilmişdir. Bilgə Karasunun "Gecə", Ədalət Ağaoğlunun “Yay sonu”, Leyla Ərbilin “Məktub eşqləri” romanlarındakı təhkiyə strukturunun yeni səciyyə alması öyrənilmişdir.

- Dissertasiyada həmçinin Türkiyə nəsrinin bu dövrdə yazdığı yeni üslublu romanları ilə seçilən Mehmet Əroğlunun modern üslubda, kafkasayağı tərzdə yazdığı romanlarında yadlaşma probemi araşdırmaya cəlb edilmişdir. Müəllifin bu dövrdə qələmə aldığı dörd romanı, “Tənhalığın ortası”, Gecikmiş ölü”, “Yarım qalan gəzinti” və “Adını unudan adam” əsərlərinin təhkiyə strukturunda səbəb-nəticə əlaqəsinin qırılması, mərkəzi təhkiyə sisteminin dağılması müəyyən edilmişdir. Frans Kafka, Albert Kamyunun əsərlərindəki yadlaşmanı Mehmet Əroğlu Türkiyə nəsrinin və cəmiyyətinin stixiyasına uyğun olaraq uğurla tətbiqi məsələləri öyrənilmişdir.

- Tədqiqat işində Türkiyənin tanınmış yazıçısı, Nobel mükafatı laureatı Orxan Pamukun 1980-ci illərdə qələmə aldığı dörd romanı, “Cövdət bəy və oğulları”, “Səssiz ev”, “Bəyaz qala” və “Qara kitab” əsasında Türkiyə nəsrində modern ədəbiyyatdan postmodern nəsrə keçidin xüsusiyyətləri öyrənilmişdir.

- Azərbaycan ədəbiyyatında roman janrı xüsusilə sovet dövründə böyük inkişaf yolu keçmişdir. Sosrealizmin sərt şəkildə tətbiq edildiyi 1930-1950-ci illərdə Azərbaycan romanlarının dilinin mükəmməlliyi, obrazlar aləminin zənginliyi ilə diqqəti cəlb etmişdir. 80-ci illərdə, müstəqilliyin və azadlığın qoxusunun duyulduğu mərhələdə Azərbaycan romanı öz funksionallığını daha da artmışdır. Mövlud Süleymanlı, Yusif Səmədoğlu, Elçin yaradıcılığında mifoloji məzmun mündəricəsi, Əzizə Cəfərzadə, Fərman Kərimzadə, Əlisa Nicat yaradıcılığında tarixi-milli yaddaşın bərpasına cəhdlər dövlət müstəqilliyi ideyasını daha qüvvətləndirmişdir.

- Tədqiqatın nəticəsində bu qənaətə gəlinmişdir ki, xüsusilə sovet imperiyasında yaşayan türk xalqlarının milli varlıq uğrunda mübarizəsində böyük qırğız yazıçısı Çingiz Aytmatovun "Gün var əsrə bərabər" (1980) romanı mühüm rol oynamışdır. Çingiz Aytmatov bu romanı ilə repressiya faciəsini qırğız insanının taleyi fonunda böyük ədəbiyyata gətirmişdir. Manqurtlaşma anlayışı ilə sovetlərin türk xalqlarının başına gətirilən faciəni əks etdirən roman bu xalqların oyanışında böyük rol oynamışdır. Çingiz Aytmatovun yaradıcılığı əsas olmaqla qırğız nəsrinin türk xalqları ədəbiyyatında yeri və özünün roman başlanğıcının qırğız humanitar fikrinə hansı şəkildə təsir etməsi göstərilmişdir.

- Araşdırılan zaman çərçivəsində Şərqi Türküstanda yaşayan uyğurların roman yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq tədqiqata cəlb edilmiş və XX əsrdə uyğur xalqının müstəqillik və azadlıq uğrunda apardıqları mübarizənin nəsrdə hansı şəkildə əks olunması məsələsi araşdırılaraq Əbdürrəhim Ötkür, Hevir Tömür, Turdı Samsak, Zordun Sabirin romanlarında uyğurların mübarizələri tarixi xronika şəklində əks olunduğu aşkar edilmişdir. Müəlliflərin özlərinin də xalqın aparıcı ziyalı şəxsiyyətləri kimi təzyiq altında qaldığı repressiv rejimin mahiyyətini təsvir etdikləri romanların ideya-məzmun xətti tədqiqat obyekti kimi seçilmişdir.

- 80-ci illər qazax romançılığında baş verən təkamül prosesləri, Rollan Seysenbayev, Smaqul Elubay kimi görkəmli yazıçıların 1930-cu illərdəki aclığın səbəbləri, sovet imperiyasının repressiv mahiyyətinin qazax nəsrində əksi məsələləri tədqiq edilmişdir. Qazax romanı 80-ci illərdə baş verən ictimai-siyasi hadisələrin fonunda təkamül prosesləri yaşamış və təhkiyə strukturunda müəyyən dəyişmələr baş vermişdir.

- Tədqiqat nəticəsində məlum olmuşdur ki, özbək romançılığının yaradıcısı Abdulla Qədirinin romanlarından başlayaraq, bütün inkişaf dönəmlərində özbək romançıları tarixi mövzu aparıcılıq təşkil etmişdir. Özbək romançılığında Abdulla Qədiridən sonrakı mərhələdə orta əsrlərə, özbəklərin daha qədim dövlətlərinə və onun görkəmli sərkərdələrinə, şairlərinə həsr olunmuş əsərlər yazılmışdır. 80-ci illərdə də özbək romanında

başlıca motivin tarixilik olduğu aşkar edilmişdir. Bu illərdə tarixi mövzu sadəcə xalqın keçmişinə işıq salmaqla işini bitmiş hesab etməmiş, xalqın gələcəyinə, işğaldan azad olub öz müstəqil dövlətini qurmasına dair mesajlar da verilmişdir. Adil Yaqubov, Pirimkul Kadirov kimi dövrün aparıcı yazıçılarının əsərlərində ortaq türk tarixinin, özbək milli kimliyini ifadə edən tarixi qəhrəmanların obrazları yaradılmışdır.

- Türkmən ədəbiyyatında isə roman janrı sosrealizmin faktı kimi meydana çıxmış və bu ideologiyanın qəlib prinsipləri ən çox türkmən nəsrində tətbiq edilmişdir. Hətta tədqiqata cəlb etdiyimiz 80-ci illərin birinci yarısında belə, türkmən romançılığında sosialist meyarlar, kolxoz quruculuğu məsələləri hakim olmuşdur. Onilliyin sonlarına doğru Oraz Yağmurun yaradıcılığında quruluşa qarşı tənqidi mövqe, Qılıç Quliyevin nəsrində tarixi şəxsiyyətlərə müraciət öz əksini tapmağa başlamışdır. Bu dövrdə türkmən romanlarında Dövlətməmməd Azadi, Məhtimqulu Fəraqi, Molla Nəfəs, Qovşud xan kimi şairlərin obrazları yaradılmış, onlara həsr olunan romanlar yazılmışdır.

- Tədqiqat zamanı o da müəyyən edilmişdir ki, sovetlərin dağılması ilə ondan müstəqil subyekt kimi ayrılacaq türk xalqlarının nəsri ilə, imperiyanın tərkibində muxtar statusla varlığını davam etdirəcək türk xalqlarının romanlarında tarixə müraciət, quruluşa yanaşmada tənqidin kəskinliyi fərqlənmişdir. Bu dövr başqırd ədəbiyyatının görkəmli nümayəndələri olan Denis Bülekovun, Kirey Merqenin tarixi romanlarında başqırdların tarixi mövcudluğu məsələsi ön planda təsvir edilmişdir. Başqırd romanında əhəmiyyətli dərəcədə milli məzmun baxımından dəyişmənin olduğu müəyyən edilmişdir. Başqırd milli kimliyinin dərki, onun subyekt kimi varlığını qoruyuyb saxlamaq uğrunda mübarizənin roman mətnlərində əksi tədqiqat zamanı aşkara çıxarılmışdır.

- Zəngin maarifçi ənənəyə əsaslanan tatar romanının yaranması və keçdiyi inkişaf yoluna da nəzər salınmışdır. Cədidizmlə eyni vaxtda yaranan tatar romanı XX əsrdə böyük inkişaf yolu keçərək 80-ci illərə gəlib çatmışdır. Tədqiqat işində onilliyin ikinci yarısında tatar romanında ictimai məzmunun

gücləndiyini, sosial etirazın artdığını, tarixi mövzulara müraciətlərin olduğu müşahidə edilmişdir. İbrahim Salahovun "Kolıma məhkumları" romanı türk xalqları ədəbiyyatında repressiya mövzusunda yazılmış ən yaxşı bioqrafik roman nümunələrindən biri kimi səciyyələndirilə bilər. Dissertasiya işində Nurixan Fəttahın "İdil çayı axır" (1969) və "Fit çalan oxlar" ("Çavuş oxları") (1982) romanlarında türk tarixi keçmişinin izləridir.

-Təhlillər göstərir ki, türk xalqları romanı fərqli ictimai münasibətlər sistemində yerləşməsinə baxmayaraq, 80-ci illərdə bədii-estetik planda dəyişmələrdən keçmiş və bu transformasiya prosesləri onilliyin ayrıca mərhələ kimi səciyyələndirilməsinə imkan yaratmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**


1. Гасанлы, М. Стилистический контекст в романе «И дольше века длится день»: от буранного к космосу // Киев: Науковий вісник Міжнародного гуманітарного університету. Сер.: Філологія, – 2020. 44, – с.82-87
2. Həsənli, M. Çingiz Aytmatovun romanları mətnlərarası əlaqələr kontekstində // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2021. 1, – s.42-45
3. Həsənli, M. Abdurrahim Ötkürün "İz" romanında tarixi gerçəkliyin bədii ifadəsi // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2021. 2, – s.34-39
4. Həsənli, M. Çingiz Aytmatovun "Kassandra damğası" romanında xaosmos // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2022. 1, – s.35-39
5. Həsənli, M. 1980-ci illər Türkiyə romanında yadlaşma problemi (Mehmet Əroğlunun romanları əsasında) // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2022. 2, – s.14-19
6. Həsənli, M. Orxan Pamukun "Qara kitab" romanında dekonstruksiya // Bakı: Filologiya və sənətşünaslıq, – 2022. 2,

– s.179-184
7. Həsənli, M. Smaqul Elubayın “Ağ çadır” romanında kosmos-xaos əvəzlənməsi // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2023. 1, – s.18-24
8. Həsənli, M. Türkiyə romanında kafkasayağı tendensiyalar (Bilgə Karasunun “Gecə” romanı əsasında) // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2023. 2, – s.121-126
9. Hasanli, M. Style mosaıc of the modern Kazakh novel // Unıversıdad Y Socıedad | Have Scientific of the University of Cienfuegos, – 2024. 16(3), – p.121-126
10. Həsənli, M. 1980-ci illər tatar romanlarında milli yaddaş // Bakı: Filologiya və sənətşünaslıq, – 2024. 1, – s.109-116
11. Hasanlı, M. Türkmən Yazıçısı Qılıç Quliyevin “Məhtimqulu” Romanında Məhtimqulu Fəraqinin Obrazı // Folklor Akademi Dergisi, – 2024, 7, – s.24-29
12. Hasanlı, M. Pirimkul Kadırov ve Adil Yagubov'un tarihi romanlarında Özbek Milli Düşüncesinin Yansıması // Toshkent Davlat Pedagogıka Unıversıtetı Ilmıy Axborotları Ilmıy-Nazarıy Jurnalı, – 2024, 2, – s.89-96
13. Həsənli, M. Başqırd yazar Denis Bülekovun romanları estetik dəyişmə paradiqmasında // Bakı: Filologiya məsələləri, – 2024. 4, – s.268-273
14. Həsənli, M. 1980-ci illər türkmən romanında sosial və tarixi motivlər // Bakı Qızlar Universiteti Elmi əsərlər, – 2024, cild 20 №3,(59), – s.175-181
15. Həsənli, M. Fərman Kərimzadənin “Təbriz namusu” əsərində tarix və müasirlik // Bakı: Filologiya məsələləri, – 2024. 8, – s.328-332
16. Həsənli, M. “Qiyamət” romanında dünyanın sonu və xilas konsepsiyası // Bakı: Second İnternational Scientific Conference of Young Scientists and Specialists, 3-6 march, 2020, – s.412-415
17. Həsənli, M. 1980-ci illər uyğur romanında milli xarakter problemi // Bakı: BSU Azərbaycanşünaslığın aktual problemlərinə həsr olunmuş Beynəlxalq elmi-praktik konfransın materialları, 4-5 may 2022-ci il, – s.206-209

18. Həsənli, M. Orxan Pamukun “Bəyaz qala” romanında kimlik problemi // Bakı: BDU Şərqşünaslıq fakültəsinin 100 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları, 14 dekabr 2022-ci il, – s.256-257
19. Hasanli, M. Orxan Pamukun “Bəyaz qala” romanında Şərq-Qərb dilemması // Toshkent: Turkiy xalqlar adabiyotı: Adabıy aloqalar, adabıy tasır va tarjıma mavzusıdagı xalqaro ılmıy-nazarıy anjuman maqolalar toplamı, 2022, – s.247-251
20. Hasanli, M. Functionality of mythical memory in Movlud Suleymanli’s novel «Nomad» // Warsaw: Proceedings of the 5th International Scientific Conference «Research Retrieval and Academic Letters», 21-22 march, 2024, – s.290-293
21. Həsənli, M. Türk xalqları romanının yaranması və inkişaf meyilləri // Bakı: VIII international scientific conference of young researchers. Proceedings, 26-27 april, 2024, – s.1909-1913
22. Həsənli, M. Azərbaycan romanının yaranması və ilkin inkişaf dövrü // Navoiy: O‘zbekıston Respublıkası Olıy ta’lım, Fan va Innovatsıyalar Vazırlıgı Navoıy Davlat Pedagogıka Instıtutı “Globallashuv Davrıda Turkıy Tıllar Integratsıyası” mavzusidagi xalqaro ilmiy-amaliy konferensiya, 24 may 2024, – s.142-144
23. Çingiz Aytmatov fenomeni və Azərbaycan // Bakı: Elm və təhsil, – 2020, – 406 s.
24. Cengiz Aytmatov fenomeni ve Azerbaycan // Ankara, “Bengü” yayınları, – 2023, – 332 s.



Dissertasiyanın müdafiəsi 30 aprel 2025-ci il tarixində saat 12:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.18 – Dissertasiya şurasının bazasında yaradılmış BED 1.18 – Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı-Az-1143, Bakı ş., H.Cavid pr. 117, AMEA akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu. VII mərtəbə, Akt zalı.

Dissertasiya ilə AMEA-nın akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 18 mart 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.03.2025.

Kağızın formatı: A5

Həcm: 84560

Tiraj: 100 nüsxə